9 iyul 2021 №51 (1828)

www.medeniyyet.az

MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

Qarabağ, Şərqi Zəngəzur...

Prezident İlham Əliyev iyulun 7-də Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman imzalayıb.

Fərmanda qeyd olunur ki, işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacibdir.

Azad olunmuş ərazilərin ölkəmizin iqtisadiyyatına reinteqrasiyası digər iqtisadi rayonlar, o cümlədən Gəncə–Qazax və Aran iqtisadi rayonları üzrə planlaşdırma işinin səmərəliliyinin artırılmasını, iqtisadi idarəetmədə çevikliyin təmin olunmasını və bu məqsədlə həmin iqtisadi rayonların tərkibinə də yenidən baxılmasını tələb edir.

Fərmanla Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edilib. Yeni bölgü 14 iqtisadi rayonu əhatə edir: Bakı iqtisadi rayonu (Bakı şəhəri); Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonları); Abşeron–Xızı iqtisadi rayonu (Sumqayıt şəhəri, Abşeron və Xızı rayonları); Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonları); Gəncə–Daşkəsən iqtisadi rayonu (Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları); Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları); Qazax–Tovuz iqtisadi rayonu (Ağstafa, Gədəbəy, Qazax, Şəmkir və Tovuz rayonları); Quba–Xaçmaz iqtisadi rayonu (Xaçmaz, Quba, Qusar, Siyəzən və Şabran rayonları); Lənkəran–Astara iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Lənkəran, Masallı və Yardımlı rayonları); Mərkəzi Aran iqtisadi rayonu (Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları); Mil–Muğan iqtisadi rayonu (Beyləqan, İmişli, Saatlı və Sabirabad rayonları); Şəki–Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonları); Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları); Şirvan–Salyan iqtisadi rayonu (Şirvan şəhəri, Biləsuvar, Hacıqabul, Neftçala və Salyan rayonları).

Xatırladaq ki, indiyədək mövcud olan bölgüdə 11 iqtisadi rayon vardı: Bakı şəhəri; Naxçıvan; Abşeron; Gəncə-Qazax; Şəki-Zaqatala; Lənkəran; Quba-Xaçmaz; Aran; Yuxarı Qarabağ; Kəlbəcər-Laçın; Dağlıq Şirvan.

Yeni bölgüdə Aran iqtisadi rayonu (18 rayon və şəhər) üç yerə bölünüb, həmçinin Kəlbəcər-Laçın iqtisadi rayonu əvəzinə Şərqi Zəngəzur iqtisadi rayonu yaradılıb.

Fərmanda o da qeyd edilir ki, "Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası məqsədləri üçün həmin Dövlət Proqramında göstərilmiş iqtisadi rayonların bölgüsü tətbiq edilir. Yəni yeni bölgü artıq növbəti Dövlət Proqramında nəzərə alınacaq.

Şeir də var, sənət də vardır...

Gürcüstanda Azərbaycan mədəniyyəti rüzgarı – Nizamidən Aşıq Kamandaradək

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfərə gedib. İyulun 6-da başlanan səfərin proqramına rəsmi görüşlərlə yanaşı, Gürcüstanın mədəniyyət müəssisələri, eləcə də bu ölkədəki Azərbaycanla bağlı mədəniyyət ocaqları ilə tanışlıq, müxtəlif tədbir və təqdimatlar da daxildir.

İyulun 8-də Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb. Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Gürcüstanın mədəniyyət, gənclər və idman nazirinin birinci müavini Kaxa Sixarelidze, Azərbaycan səfirliyinin əməkdaşları, nümayəndə heyətinin üzvləri sərgi ilə tanış olublar.

Sərgidə azərbaycanlı və gürcü rəssamların Nizami irsinə həsr olunmuş miniatür və rəsm əsərləri nümayiş etdirilir.

Nazir Anar Kərimov tədbirdə çıxış edərək Azərbaycan Prezidentinin 2021-ci ili "Nizami Gəncəvi İli" elan etməsinin əhəmiyyətindən danışıb. Vurğulayıb ki, bu kimi qərarlar Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin inkişafında xidmətləri olmuş görkəmli şəxslərin irsinə dövlət tərəfindən göstərilən diqqətin bariz nümunəsidir. Nazir qonşu Gürcüstanda bu cür sərgilərin açılmasının mədəni əlaqələrimizin inkişafına xidmət etdiyini bildirib.

Kaxa Sixarelidze: "Nizaminin fikirləri elm mənbəyidir"

Gürcüstanın mədəniyyət, gənclər və idman nazirinin birinci müavini Kaxa Sixarelidze dahi söz ustadı, mütəfəkkir şair Nizami Gəncəviyə həsr olunmuş sərgini yüksək qiymətləndirib. Bildirib ki, N.Gəncəvinin əsərlərinə Gürcüstanda da böyük maraq var. Onun fəlsəfi fikirləri bu gün də sevilir və gələcək nəsillər üçün bilik, elm mənbəyi olacaq.

"Nizami Gəncəvi özündən sonrakı nəsillərə faydalı əsərlər bəxş edən hərtərəfli dahidir. Onun dahiliyi, ilk növbədə, Azərbaycan xalqına məxsusdur, lakin gürcü xalqı da onunla qürur duyur. Nizami bütün Qafqazın dahi şəxsiyyətidir", – deyə nazir müavini vurğulayıb.

davamı səh. 2-də

7 iyul Şəkidə "Şəhər günü" kimi qeyd ediləcək

İki il əvvəl, 2019-cu il iyulun 7-də UNESCO-nun Dünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasında Azərbaycanın tarixi-mədəni irsinin təntənəsi olan əlamətdar hadisə baş verdi.

Ölkəmizin qədim mədəniyyət mərkəzlərindən biri, məxsusi sənət irsi, memarlığı ilə tanınan Şəki şəhərinin tarixi hissəsi "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiya olaraq UNESCO-nun Dünya İrsi Siyahısına daxil edildi. Bu, İçərişəhər (Qız qalası və Şirvanşahlar sarayı ilə birlikdə; 2000-ci il) və Qobustandan (2007-ci il) sonra Azərbaycandan Dünya İrsi Siyahısına salınan üçüncü tarixi-mədəni məkandır.

İyulun 7-də bu əlamətdar faktın rəsmi sənədinin – Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun siyahısına salınmasına dair sertifikatın Şəki şəhərinə təqdim olunması mərasimi keçirilib.

Mərasimdə Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov, Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Milli Məclisin deputatları, digər rəsmi şəxslər və qonaqlar, yerli ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində Şəki sənətkarlarının əl işlərindən ibarət sərgi ilə tanış olublar.

Şəki Xan sarayının qarşısında təşkil edilən mərasim Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə başlanıb.

Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev çıxış edərək bildirib ki, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin Dünya İrsi Siyahısına daxil edilməsi ölkəmizin tarixində, eləcə də Şəkinin mədəni irsinin və turizm potensialının tanıdılmasında çox mühüm hadisədir.

davamı səh. 3-də

Aşıq Ələsgərə həsr olunmuş film çəkilir

Azərbaycan aşıq poeziyasını zirvələrə yüksəltmiş el sənətkarı, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi ilə əlaqədar "Salnaməfilm" studiyasında "Aşıq Ələsgər 200" işçi adlı sənədli film istehsala buraxılıb.

Mədəniyyət Nazirliyinin sifarişi ilə çəkilən filmin xronometrajı 52 dəqiqədir. Aşıq Ələsgərin ana vətəni Göyçə mahalı indiki Ermənistan ərazisində qalsa da, onun həyatının və yaradıcılığının əhəmiyyətli hissəsi bu mahala qonşu Kəlbəcərlə bağlıdır.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 gün davam edən Vətən müharibəsindən sonra Kəlbəcər rayonunun işğaldan azad edilməsi həm də rəmzi olaraq tarixi Oğuz yurdu Göyçə mahalına açılan qapı olub. Bu gün Azərbaycan əsgərlərinin dayandığı mövqelərdən Aşıq Ələsgərin doğma kəndi Ağkilsə arasındakı məsafə cəmi 7 km-dir. Elə filmin finalı da bu notlar üzərində qurulacaq.

Filmin çəkilişləri Bakı, Gəncə, Göygöl, Daşkəsən, Goranboy, Tovuz, Şəmkir, Gədəbəy, Qazax və işğaldan azad edilmiş Kəlbəcər ərazisində, o cümlədən Türkiyə Cümhuriyyətinin Qars və İğdır vilayətlərində aparılacaq, arxiv foto və kino materiallarından, folklorşünas alimlərin və sənətkarların, eləcə də Aşıq Ələsgər ocağının nümayəndələrinin müsahibələri və kadrarxası diktor mətnindən istifadə ediləcək. Filmə bədii səhnələrlə rəng qatılacaq. Artıq Gədəbəy, Qazax rayonlarında çəkilişlər aparılıb.

Qeyd edək ki, filmin ssenari müəllifi Füzuli Sabiroğlu, quruluşçu rejissoru Nizami Abbas, quruluşçu operatoru Üzeyir Abbas, montaj rejissoru Mübariz Nağıyevdir. İcraçı prodüser Azad Axundov, prodüser Nazim Hüseynovdur.

Azərbaycanda daşınmaz mədəni irsin qorunması tarixindən

Qədim yaşayış məskənlərindən aşkar olunan tapıntılar, müxtəlif tikinti qalıqları, kurqanlar, qədim qəbiristanlıqlar, memarlıq baxımından dəyərli hesab olunan yaşayış, inzibati və ictimai binalar və s. onları yaradan əcdadlarımızın bilikləri, dünyagörüşü, inancı haqqında məlumat daşıyırlar.

Bu baxımdan maddi mədəni irs həm də xalqın milli pasportu qismində çıxış edə bilir. Belə olan halda maddi mədəni irsin qorunması məsələsi xüsusi aktuallıq qazanır.

Bəs mədəni irs nümunələrinin qorunması dedikdə nə başa düşülür? Tarixən ölkəmizdə mədəni irsin qorunması işi necə təmin olunub?

səh. 6



Milli Xalça Muzeyinin Kazanda sərgisi

İyulun 7-də Rusiya Federasiyasının Tatarıstan Respublikasında "Kazan Kremli" Muzey-Qoruğunda "Xalça sənəti – mənaların təkamülü" adlı sərgi açılıb.

Tatarıstan paytaxtında ilk dəfə olaraq Azərbaycan xalçaçılığına, onun ənənələrinə və müasir təcəssümünə həsr olunmuş genişmiqyaslı ekspozisiya təqdim edilib.

davamı səh. 2-də

Mirəli Mirqasımovun yaradıcılıq dünyası

Mirəli Mirqasımov yarım əsrdən çox uğurlu bədii yaradıcılıq fəaliyyəti ilə məşğul olub, bədii-estetik məziyyətlərə malik bir çox büst portret əsərləri və monumental heykəltəraşlıq abidələri ərsəyə gətirib.

Tişə ustasının dəzgah heykəltəraşlığı sahəsində yaratdığı büst portretlərə nə qədər poetiklik, lirizm və zahiri statiklik xasdırsa, monumental heykəltəraşlıq abidələrində isə, əksinə olaraq, dinamizm, daxili ekspressivlik və gərgin müdrik düşündürücülük əlamətləri xasdır.

səh. 7

Bakı Uşaq və Gənclər Teatrı "Qaliblər" düşərgəsində

səh. 4

"İncəsənəti tamaşaçı və cəmiyyət üçün maraqlı bir məkana çevirməliyik"

səh. 4

Xalq yazıçısından uşaqlara hədiyyə

səh. 8

№51 (1828)
9 iyul 2021
www.medeniyyet.az

Mədəniyyət naziri Gürcüstanın Baş naziri və parlament sədri ilə görüşüb

Gürcüstanda səfərdə olan Azərbaycanın mədəniyyət naziri Anar Kərimovun rəsmi görüşləri iyulun 7-8-də də davam edib.

İyulun 8-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycanın mədəniyyət nazirini qəbul edib.

Baş nazir Azərbaycanın mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Gürcüstana səfərindən məmnunluğunu bildirib. Qeyd edib ki, Gürcüstan ilə Azərbaycan bölgədə çox səmərəli əməkdaşlıq edirlər. Bu əməkdaşlığın inkişaf etdirilməsi Gürcüstan üçün böyük əhəmiyyət daşıyır.

İrakli Qaribaşvili Gürcüstanın suverenliyi və ərazi bütövlüyünə göstərdiyi qətiyyətli dəstəyə görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib. O, Gürcüstanın Azərbaycanın ərazi bütövlüyünə dəstəyini bir daha təsdiqləyib.

Anar Kərimov da öz növbəsində Azərbaycan və Gürcüstan arasındakı mədəni və humanitar sahələr üzrə əməkdaşlıq məsələlərinin diqqət mərkəzində olduğunu bildirib.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın mədəniyyət, gənclər və idman naziri Tea Sulukiani də iştirak edib.

***

İyulun 7-də Gürcüstan Parlamentində mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Gürcüstan Parlamentinin sədri Kaxa Kuçava Azərbaycanın mədəniyyət nazirinin səfərini, keçirilən görüşləri və müzakirə olunan məsələləri yüksək qiymətləndirib. Bildirib ki, bu cür səfərlər iki dost və qardaş ölkə olan Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə xidmət edir.

Nazir Anar Kərimov Azərbaycanın Gürcüstan ilə münasibətlərin bütün sahələrdə inkişafına böyük önəm verdiyini qeyd edib.

Görüşdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə inkişafının vacibliyi qeyd olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və digər rəsmi şəxslər iştirak ediblər.

Milli Xalça Muzeyinin Kazanda sərgisi

"Xalça sənəti – mənaların təkamülü"

əvvəli səh. 1-də

Azərbaycan xalçalarının ən dolğun kolleksiyasına malik, dünyanın bu sahə üzrə ilk ixtisaslaşmış muzeyi olan Azərbaycan Milli Xalça Muzeyi XIX əsrin sonu – XX əsrin əvvəllərində toxunmuş ecazkar klassik xalça nümunələrini nümayiş etdirir. Onların hər biri ornament, rəng tərtibatı və texniki xüsusiyyətlərinə görə müxtəlif regional ənənələri əks etdirən nümunələrdir.

2010-cu ildə UNESCO-nun Qeyri-maddi-mədəni irs üzrə siyahısına daxil edilmiş Azərbaycan xalçaçılıq sənəti günümüzdə davamlı olaraq yeni yanaşmalarla zənginləşsə də, qədim ənənələrini itirmədən inkişaf edir. Müasir rəssamlar qədim sənətkarlığı yeni yollarla inkişaf etdirərək əsərlər yaradırlar. Bu sərgidə təqdim olunan ənənəvi Azərbaycan xalçalarını və "Chıngız" yaradıcı təxəllüsü ilə işləyən Çingiz Babayevin müəllif əsərlərini birləşdirən də bu amildir.

Rəssam Azərbaycan xalçaçılıq ənənələrini təhrif etmədən, müasir sənət nümunələri yaradaraq interpretasiya edir. Beləliklə, klassik əsərlər yeni müəllif xalçaları ilə qarşı-qarşıya qoyulur, bununla da məsafələri və zamanı qət edərək onlarla dialoqa girir. Sərgidə nümayiş olunan "Saf tarix" installyasiyası sənətkar yaradıcılığının açarı ola bilər. Ornamentsiz, birrəngli, təbii yun çalarlı, "tabula rasa"nın klassik nümunəsi olan xalça müxtəlif dövrlərin bir çox simvollarını əsrlər ötdükcə itirsə də, əbədidir.

Sərgidə təqdim olunan sənədli filmdə xalçaçı rəssam tamaşaçılarla yaradıcılıq prosesinin sirlərini bölüşür, ənənəvi xalçanın fəlsəfəsindən və müasir yozumundan bəhs edir.

Qeyd edək ki, sərginin açılışında Tatarıstan Respublikasının mədəniyyət naziri İradə Ayupova, layihənin kuratoru, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova, Tatarıstan Xalqlar Dostluğu Evinin direktoru İrek Şaripov, Tatarıstan Azərbaycanlıları Regional İctimai Birliyinin sədri Bəhram Mustafayev, "Kazan Kremli" Muzey-Qoruğunun direktor müavini Svetlana Konovalova çıxış edərək sərginin əhəmiyyətindən danışıblar.

Sonra qonaqlar sərgi ilə tanış olublar. Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova burada nümayiş etdirilən Quba, Qazax və Qarabağın ənənəvi xalçaları, onların dərin məna kəsb edən ornamentlərinin semantikaları barədə ətraflı məlumat verib. Rəssam Çingiz Babayev isə müəllifi olduğu xalçalar, onların yaranma tarixçələri və iş prosesindən bəhs edib.

"Xalça sənəti – mənaların təkamülü" sərgisi sentyabrın 5-dək davam edəcək.

əvvəli səh. 1-də

Tədbirdə Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar Azərbaycanın Gürcüstandakı Səfirliyinin elan etdiyi rəsm müsabiqəsi qaliblərinə diplom və hədiyyələr təqdim olunub.

Gürcüstanın Kançeli adına simli kvarteti konsert proqramı ilə çıxış edib. Üzeyir Hacıbəylinin və digər bəstəkarların Nizaminin şeirlərinə bəstələdikləri əsərlər səslənib.

Gürcüstanda yaşayan soydaşlarımızla görüş

M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Nizami irsinə həsr olunmuş sərgi ilə tanışlıqdan sonra mədəniyyət naziri Anar Kərimov Gürcüstanda yaşayan soydaşlarımızla görüşüb.

Görüşdə Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, "SOCAR Energy Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov, ziyalılar iştirak ediblər.

Səfir Faiq Quliyev çıxış edərək bildirib ki, Azərbaycan dövləti daim Gürcüstanda yaşayan soydaşlarımıza diqqət və qayğı göstərib. Azərbaycanın dövlət və hökumət rəsmilərinin Gürcüstana mütəmadi səfərləri, o cümlədən nazir Anar Kərimovun bu səfəri, keçirilən görüşlərdə müzakirə olunan məsələlər buna əyani sübutdur.

Səfir Gürcüstanda yaşayan soydaşlarımızın Azərbaycan dövlətinə dəstəyini də qeyd edib. Onların 44 günlük Vətən müharibəsində göstərdikləri maddi-mənəvi dəstəyi, ortaya qoyduqları qəhrəmanlıqları xüsusi vurğulayıb.

Sonra nazir Anar Kərimov çıxış edərək xarici ölkələrdə yaşayan soydaşlarımızın Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında rolunu xüsusi vurğulayıb, Gürcüstanda yaşayan azərbaycanlıların da bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirib. Bildirib ki, Gürcüstanda yaşayan, yazıb-yaradan soydaşlarımız ölkələrimiz arasında mədəni əlaqələrin genişlənməsinə və möhkəmləndirilməsinə də töhfə verirlər.

Nazir deyib: "Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Qələbədən sonra yeni dönəm başlayıb. Zəfər qazanmışıq, lakin beynəlxalq aləmdə təbliğat mübarizəsi davam edir. Qalib xalqın mədəniyyətinin tanıdılması prosesində dünyanın müxtəlif ölkələrində yaşayan hər bir azərbaycanlı rol oynamalı, öz töhfəsini verməlidir".

Görüşdə Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin direktoru Leyla Əliyeva, ziyalılardan Fatma Əliyeva, Ceyran Qurbanova, Mahmud Kamaloğlu, Şahismayıl Məmmədov, Çingizxan Yaqubov və başqaları çıxış edərək görüşün təşkilinə görə minnətdarlıq ediblər, Borçalı xalçaçılığı, milli rəqslər, muğam sənətinin yaşadılması və digər məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

Anar Kərimov qeyd edib ki, gələcəkdə Gürcüstanda Azərbaycan incəsənəti məktəbi yaradıla bilər. Azərbaycan rəqsləri, xalçaçılıq, muğam dərslərinin tədris olunacağı təhsil ocağı Gürcüstan hökuməti ilə birgə əməkdaşlıqla təsis oluna bilər.

Nazir görkəmli azərbaycanlı ədib Cəlil Məmmədquluzadənin Tbilisidə ev-muzeyini ziyarət edib, muzeyin hazırkı vəziyyəti ilə tanış olub.

Gürcüstanın Azərbaycanlı Ağsaqqallar Şurasının sədri İsak Novruzov nazirə məlumat verərək deyib ki, muzey 1998-ci ildən fəaliyyət göstərir. Muzeyin yerləşdiyi ikimərtəbəli binada 10 ailə yaşayır.

Muzey binasının möhkəmləndirilməsi, bərpası, təmiri və bədii tərtibatı ilə bağlı müzakirələr aparılıb. Anar Kərimov muzeyin bərpası, eksponatların yenilənməsi məsələsinin diqqət mərkəzində saxlanılacağını bildirib.

Sonra Anar Kərimov görkəmli dövlət xadimi, ədib və həkim Nəriman Nərimanovun Tbilisidəki ev-muzeyində olub. Nazirə muzeyin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Mədəniyyət nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Tbilisidəki Botanika bağında görkəmli azərbaycanlıların dəfn olunduğu panteonu ziyarət edib.

Şeir də var, sənət də vardır...

Gürcüstanda Azərbaycan mədəniyyəti rüzgarı – Nizamidən Aşıq Kamandaradək

Qaldırılan digər məsələ ana dilində bədii kitabların çatışmazlığı ilə bağlı olub. Nazir qeyd edib ki, hər il Azərbaycanda dövlət sifarişi əsasında nəşr olunan kitabların bir qisminin Gürcüstana göndərilməsi məsələsi nəzərdən keçiriləcək. Bunun üçün bu ölkədəki kitabxanalarla bağlı təhlil aparılmalıdır. Gürcüstanda azərbaycanlıların yığcam yaşadıqları bölgədə Azərbaycan Kitab Evinin yaradılması imkanları araşdırıla bilər.

Soydaşlarımızın Gürcüstan cəmiyyətinə inteqrasiyası barədə də fikir mübadiləsi aparılıb. Nazir deyib ki, soydaşlarımız gürcü dilini öyrənməli və Gürcüstan cəmiyyətinə inteqrasiya etməli, lakin ana dilini unutmamalıdırlar.

Anar Kərimov Gürcüstanda yaşayıb-yaradan azərbaycanlı rəssamların Bakıda sərgisinin təşkili təklifinə də müsbət yanaşıb.

Azərbaycanla bağlı mədəniyyət ocaqlarının qayğıları

Gürcüstanda Azərbaycanla bağlı mədəniyyət ocaqlarının fəaliyyəti, onların qayğı və problemləri iyulun 7-də nazir Anar Kərimovun bu müəssisələrlə tanışlığı zamanı da gündəmdə olub.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları – Fətəli xan Xoyski, Həsən bəy Ağayev, böyük ədiblər Mirzə Fətəli Axundzadə və Mirzə Şəfi Vazehin məzarları üzərinə gül dəstələri qoyulub.

Tbilisidəki Azərbaycan teatrı üçün yeni bina inşa ediləcək

Mədəniyyət naziri Anar Kərimov Tbilisidəki Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrına da baş çəkib. Nazir mədəniyyət ocağının yerləşdiyi bina ilə tanış olub.

Anar Kərimov teatrın səhnələrinə, rekvizitlərin saxlanıldığı otaqlara baxış keçirib, truppa üzvləri ilə görüşüb.

Bədii rəhbər kollektivin il ərzində 3-4 tamaşa səhnələşdirdiyini, beynəlxalq teatr festivallarına qatıldıqlarını, mədəniyyət ocağına teatr sənətinə həvəsi olan azərbaycanlı gənclərin cəlb olunduğunu qeyd edib.

Qonaqlara teatrın kiçik səhnəsində Əziz Nesinin "Öldür məni, sevgilim" əsəri əsasında hazırlanmaqda olan tamaşadan bir hissə təqdim olunub.

Nümayəndə heyəti daha sonra Azərbaycanın Gürcüstandakı Səfirliyinin binası yaxınlığında, Qorqosali küçəsində Azərbaycan teatrı üçün yeni binanın inşa olunacağı əraziyə baş çəkib.

Nazir "SOCAR Energy Georgia" şirkətinin dəstəyi ilə hazırlanan yeni tikilinin layihəsi ilə tanış olub. Məlumat verilib ki, inşaat işləri zamanı ərazidə yerləşən köhnə hamam binası da tarixi görkəminə uyğun bərpa olunacaq və məkanda sərgi zalları yaradılacaq.

Daha sonra nazir Anar Kərimov və səfir Faiq Quliyev Azərbaycanın dahi müğənnisi, SSRİ Xalq artisti Bülbülün büstünü ziyarət edib, önünə gül dəstələri düzüblər.

***

Səfər çərçivəsində mədəniyyət naziri Anar Kərimov iyulun 7-də Gürcüstan Milli Muzeyində olub.

Muzeyin baş direktoru David Lordkipanidze muzeyin tarixi, burada saxlanılan eksponatlar barədə Azərbaycanın mədəniyyət nazirinə ətraflı məlumat verib.

Bildirilib ki, ilk dəfə 1853-cü ildə "Qafqaz Muzeyi" kimi fəaliyyət göstərən muzeydə xeyli sayda eksponat saxlanılır. 1905-ci ildə tikintisinə başlanılan müasir muzey kompleksinin tikintisi xeyli müddət müxtəlif səbəblərdən dayandırılıb. 1926-cı ildə tikintisi başa çatan Gürcüstan Milli Muzeyinin nəzdində 14 muzey kompleksi fəaliyyət göstərir. Muzeydə Azərbaycan mədəniyyətini, incəsənətini əks etdirən eksponatlar da nümayiş etdirilir.

Nazir Anar Kərimov muzeylə tanış olub, Azərbaycan və Gürcüstanın dövlət və milli muzeyləri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin vacibliyini qeyd edib. Bildirib ki, birgə əməkdaşlıq sayəsində qədim Qafqaz xalqlarının mədəniyyətini, incəsənətini dünyaya çatdırmaq olar.

Görüşlərdə Anar Kərimovu Gürcüstanın mədəniyyət, gənclər və idman nazirinin birinci müavini Kaxa Sixarulidze, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və "SOCAR Energy Georgia" şirkətinin baş direktoru Mahir Məmmədov müşayiət ediblər.

Aşıq Kamandarın Ev-Muzeyi əsaslı təmir olunub

İyulun 8-də Gürcüstanın Marneuli rayonunun Kəpənəkçi kəndində Borçalı aşıq məktəbinin görkəmli nümayəndəsi Aşıq Kamandarın (Kamandar Əfəndiyev) Ev-Muzeyinin əsaslı təmir və bərpadan sonra açılışı olub.

Mərasimdə mədəniyyət naziri Anar Kərimov, Gürcüstanın mədəniyyət, gənclər və idman nazirinin birinci müavini Kaxa Sixarulidze, restavrasiya layihəsini həyata keçirmiş Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) rəhbəri Serkan Kayalar, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan, Gürcüstan Parlamentinin azərbaycanlı deputatları iştirak ediblər.

Tədbirdə çıxış edən Anar Kərimov deyib: "Simvolikdir ki, qardaş Türkiyə ilə birgə Gürcüstanda Azərbaycan mədəniyyətinə aid ocağın açılışında iştirak edirik. Tarixin bütün dövrlərində azərbaycanlılar, türklər və gürcülər dostluq şəraitində yaşayıblar və bir-birinin mədəniyyətlərinə böyük hörmət bəsləyiblər".

Mərasimin fəxri qonaqları "Aşıq Kamandar" medalı ilə təltif olunublar.

Daha sonra yerli aşıqların ifaları dinlənilib.

Bolnisi Muzeyi ilə tanışlıq

Mədəniyyət naziri Anar Kərimov Gürcüstana səfəri çərçivəsində azərbaycanlıların yığcam yaşadıqları Kvemo Kartli-Borçalı bölgəsinin Bolnisi rayonunda da olub. Nazir Bolnisi Muzeyini ziyarət edib.

Gürcüstan Milli Muzeyinin direktoru David Lordkipanidze muzeyin tarixi, müxtəlif millətlərin milli mədəniyyət nümunələrinin qorunduğu bölmələr barədə nazirə ətraflı məlumat verib.

Muzeyi gəzərək eksponatlarla tanış olan nazir Anar Kərimov Azərbaycanın milli mədəniyyət nümunələrinin saxlanıldığı guşəyə də baxıb.

"Portret 3293" – Polad Həşimov haqqında film təqdim olunacaq

İyulun 12-də Beynəlxalq Muğam Mərkəzində "Portret 3293" adlı sənədli filmin təqdimat mərasimi keçiriləcək. Film şəhid general-mayor, Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun (1975-2020) xatirəsinə həsr olunub.

Layihənin rəhbəri və ideya müəllifi Nurana Babayeva bildirib ki, ötən ilin iyulunda xain düşmən tərəfindən Tovuz hadisələrinin törədilməsi və general-mayor Polad Həşimovun şəhid olması onu bir Azərbaycan gənci kimi çox sarsıdıb: "2020-ci ilin iyul ayından emalatxanamda generalın portretini işləməyə başladım. Polad Həşimovun portreti mənim bu janrda ilk işimdir. Eyni zamanda ideyamı genişləndirərək "Portret 3293" sənədli filminin ərsəyə gəlməsinə nail olduq. 3293 rəqəmi Polad Həşimovun düşməndən aldığı postun adı, hadisələrin baş verdiyi yeri əks etdirir. Zabit və əsgər heyəti həmin postu həm də "Polad postu" adlandırırdı".

Müəllif qeyd edib ki, məqsədi Azərbaycanın Milli Qəhrəmanının xatirəsini yaşatmaqdır: "Polad Həşimovun ailə üzvlərinin tövsiyələrini nəzərə alaraq layihəmi tamamladım. Filmin və portretin təqdimatı üçün etdiyim müraciətə Beynəlxalq Muğam Mərkəzi müsbət cavab verdi və buna görə minnətdarlığımı bildirirəm".

"Chelebi Media Group" tərəfindən lentə alınan filmin prodüseri Məlahət Qurbanovadır. Çəkilişlər Azərbaycan Hərb Tarixi Muzeyi, II Fəxri xiyaban, Polad Həşimovun Sumqayıt şəhərindəki evi və Heydər Əliyev adına Ali Hərbi Məktəbdə həyata keçirilib.

LALƏ

7 iyul Şəkidə "Şəhər günü" kimi qeyd ediləcək

Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya İrsi Siyahısına salınması ilə bağlı sertifikat təqdim olunub

əvvəli səh. 1-də

Hazırda Şəki şəhərinin turistlərin ən çox üz tutduqları tarixi, bənzərsiz məkanlardan biri olduğunu vurğulayan agentliyin sədri deyib: "Şəki şəhəri memarlığı, tarixi-mədəni irsi, sənətkarlıq nümunələri, təbiəti, mətbəxi, qonaqpərvərliyi ilə hər zaman seçilib. Şəkinin tarixi hissəsinin mühafizəsi və inkişafı dövlətin daim diqqətindədir. "Yuxarı Baş" Dövlət Tarix-Memarlıq Qoruğuna Milli Qoruq statusunun verilməsi bu diqqətin bariz nümunəsidir".

Fuad Nağıyev Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqların hər birinin ərazisində kompleks işlərin aparıldığını, əsas məqsədin mədəni-tarixi irsimizi qoruyaraq onları daha maraqlı və cəlbedici etmək olduğunu vurğulayıb. Agentlik sədri UNESCO ekspertləri ilə sıx əməkdaşlıq işlərinin davam etdirildiyini, "Xınalıq" qoruğunun da təşkilatın namizəd irs nümunələrinin ilkin siyahısına salındığını diqqətə çatdırıb.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov əlamətdar gün münasibətilə şəhər ictimaiyyətini təbrik edib. Diqqətə çatdırılıb ki, Şəki şəhəri 2010-cu ildə Azərbaycanın "Sənətkarlıq paytaxtı" seçilib, 2016-cı ildə TÜRKSOY tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunub, 2017-ci ildə UNESCO-nun Yaradıcı Şəhərlər Şəbəkəsinə daxil edilib. Şəki eyni zamanda Dünya Tarixi Şəhərlər Liqasının üzvüdür.

Şəkinin sənətkarlığın yüksək səviyyədə inkişaf etdiyi ərazilərdən biri olduğunu vurğulayan icra başçısı hazırda şəhərdə xalq tətbiqi sənətinin 18 növü üzrə 200 nəfərdən çox sənətkarın məşğul olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Şəki Azərbaycanda festivallar şəhəri kimi də tanınır. Şəkidə keçirilən ənənəvi "İpək Yolu" Beynəlxalq Musiqi Festivalı, beynəlxalq teatr, şirniyyat festivalları şəhərin qeyri-maddi irsinin qorunub saxlanılmasına imkan yaradıb, eyni zamanda turizm potensialının genişləndirilməsi və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynayıb.

Bildirilib ki, Şəkinin beynəlxalq turizm və mədəniyyət mərkəzi kimi yenidən qurulması ilə əlaqədar Prezident İlham Əliyevin verdiyi tapşırıqlar, şəhərin inkişafı ilə bağlı imzalanan sərəncamlar nəticəsində bu gün Şəki milli memarlıq üslubunu qoruyub saxlamaqla müasirləşir.

Şəkinin zəngin tarixi-mədəni irsinin qorunmasına göstərdiyi yüksək diqqət və qayğıya görə sakinlər adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını bildirən

Elxan Usubov çıxışının sonunda hər il iyulun 7-nin Şəkidə "Şəhər günü" kimi qeyd olunmasını təklif edib.

Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib ki, Azərbaycanın ən qədim şəhərlərindən olan Şəkinin tarixi mərkəzinin UNESCO-nun siyahısına salınması ölkəmizin ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda tanınmasının daha bir nümunəsidir: "Şəkinin tarixi əhəmiyyətini göstərən bu mühüm hadisə, öz növbəsində region üçün bir sıra iqtisadi imkanlar yaradır. İqtisadi imkanlar bu diyarın turizm potensialının reallaşdırılması deməkdir".

Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya İrsi Siyahısına salınmasının uzun və çətin yol olduğunu bildirərək, Şəkinin təkcə maddi-mədəni irs üzrə deyil, həm də yaradıcılıq kontekstində mühüm rol oynadığını qeyd edib.

Milli Məclisin deputatı Vüqar İsgəndərov çıxışında ölkəmizdə mədəni irsin qorunmasına göstərilən yüksək dövlət qayğısından bəhs edib.

Tədbirdə çıxış edən UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi Elnur Sultanov iki il əvvəl UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyasında qəbul olunmuş qərarın tarixi əhəmiyyətini bir daha diqqətə çatdıraraq bildirib ki, bu, Azərbaycan mədəniyyətinin, onun qədim tarixinin zənginliyini ifadə edir: "Bu həm də Xan sarayının, qədim Şəkinin tarixi abidələrinin bütün bəşəriyyətin mədəni sərvəti olaraq qəbul edilməsi anlamına gəlir. UNESCO-nun Baş direktoru tərəfindən imzalanan sertifikat mədəni irsimizi qoruduğumuza, təşviq etdiyimizə və gələcək nəsillərə ötürdüyümüzə görə xalqımıza təqdim olunan rəmzi bir təşəkkürnamədir".

Sonra Şəkinin tarixi mərkəzinin Dünya İrsi Siyahısına salınması ilə bağlı UNESCO sertifikatı şəhərin icra başçısı Elxan Usubova təqdim edilib.

Tədbir çərçivəsində həmçinin Şəkidə tarixi-mədəni irsin qorunub saxlanılması və xalq tətbiqi sənətinin inkişafında xidmətlərinə, keçirilən mədəni-kütləvi tədbirlərdə fəal iştirakına görə bir qrup şəxs təltif olunub.

Mədəniyyətimizə verilən dəyər

İki il əvvəl Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi Azərbaycan xalqının mədəniyyətinə, tarixinə və irsinə verilən bir dəyərdir. UNESCO-nun əsas şərtlərindən biri ondan ibarətdir ki, həmin tarixi məkan, tarixi irs müstəsna universal dəyərə malik olsun. Eyni zamanda bu irs insan sivilizasiyasının yaradıcı dühasını ehtiva etməlidir və bu ənənələr gələcək nəsillərə çatdırılmalıdır. Bu kontekstdə, Şəki Xan sarayı və Şəkinin tarixi mərkəzi Azərbaycan xalqının, dünya mədəniyyətinin tarixində çox mühüm rol oynayır.

Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Vasif Eyvazzadə bu sözləri UNESCO sertifikatının Şəki şəhərinə təqdim edilməsi mərasimində jurnalistlərə açıqlamasında söyləyib.

Vasif Eyvazzadə qeyd edib ki, dünyada milyonlarla mədəni tarixi abidə, çoxsaylı tarixi mərkəzlər var. Lakin onlardan yalnız 1121-i Dünya İrsi Siyahısına daxil edilib. Bu siyahıda Şəkinin tarixi mərkəzinin yer alması Azərbaycan mədəniyyətinin dünya miqyasında tanınması deməkdir, eyni zamanda xalqımızın çoxəsrlik tarixinin göstəricilərindən biridir.

ABŞ-da yaşayan gənc həmvətənimizin Şuşada rəsm sərgisi

Azərbaycanın mədəniyyət paytaxtı Şuşada ABŞ-da yaşayan istedadlı gənc rəssam Tokay Zamanın rəsm sərgisi təşkil edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, sərgidə ABŞ-da doğulan və yaşayan rəssamın qədim və müasir Azərbaycana, Şuşanın tarixinə və erməni işğalından azad olunmasına həsr etdiyi yağlı boya ilə çəkilmiş əsərləri nümayiş olunub.

Sərginin açılışında Türkiyə, İsrail, Rusiya, Polşa, Yaponiya, Litva və digər ölkələrin media təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Milli Məclisin üzvü Tural Gəncəliyev mədəniyyət paytaxtımızda keçirilən sərginin böyük əhəmiyyət kəsb etdiyini bildirib.

ABŞ-da fəaliyyət göstərən Azərbaycan diasporunun fəal nümayəndəsi Elmira Əliyeva çıxışında qeyd edib ki, bənzər tədbirlər Azərbaycanla ABŞ arasında mədəni körpü rolunu oynayır. İştirakçılar xalqımız və dünya azərbaycanlıları üçün müqəddəs şəhər sayılan Şuşada olmaqdan qürur hissi keçirdiklərini vurğulayıblar.

Sonda gənc rəssam Tokay Zamanın Şuşanın işğaldan azad olunmasına həsr etdiyi



"Şuşa, sən azadsan!" adlı tablosu Azərbaycan Prezidentinin Şuşadakı xüsusi nümayəndəliyinə hədiyyə edilib.

"Ünsiyyət bağları" davam edir

Beynəlxalq Muzeylər Şurası (İCOM) Azərbaycan Milli Komitəsinin "Ünsiyyət bağları: görüşlər və diskussiyalar" layihəsi çərçivəsində növbəti görüş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi nəzdində "İçərişəhər" Muzey Mərkəzinin Bakı Fotoqrafiya Evində keçirilib.

Görüş iştirakçıları İordaniya dövlətinin yaradılmasının 100 illiyi münasibətilə təşkil edilmiş "Əmman – 100 illik yürüş" adlı fotosərgi ilə tanış olublar. Görüşdə İordaniya Haşimilər Krallığının ölkəmizdəki səfiri Sami Asem Ğoşeh də iştirak edib.

Qeyd edək ki, iyulun 1-də açılan fotosərgidə İordaniyanın paytaxtı Əmman şəhərinin tarixi inkişafını təsvir edən 40 fotoşəkil yer alıb.

Bölgələrdən xəbərlər

Vətənin qəhrəmanları unudulmur

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon MKS "Milli Qəhrəmanlar zirvəsi, qeyrət rəmzi" adlı onlayn tədbir keçirib. Mədəniyyət işçiləri və fəal oxucuların iştirak etdiyi tədbirdə şanlı Ordumuzun qəhrəmanlıq səhifəsini əks etdirən virtual sərgi nümayiş olunub.

İsmayıllı Regional Mədəniyyət İdarəsində Vətən müharibəsində iştirak etmiş tabe müəssisələrin əməkdaşları ilə görüş keçirilib. Görüşdə regional idarənin rəisi Elçin Nəcəfov, idarənin əməkdaşları və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı İsmayıllı rayon komitəsinin sədri Gülər Abdullayeva iştirak ediblər.

Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon Hənifə kənd Sənətkarlıq klubunun işçiləri Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Orxan Hüseynovun məzarını ziyarət ediblər. Oğuz rayon Qumlaq kənd kitabxanasında Vətən müharibəsi şəhidi Vüsal İsmayılovun xatirəsinə həsr olunmuş onlayn anım tədbiri keçirilib. Tədbirdə şəhidin ailə üzvləri, kitabxana əməkdaşları və fəal oxucular iştirak ediblər.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər Heydər Əliyev Mərkəzində K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin şagirdlərinin rəsm və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət "Xarıbülbül" adlı sərgi nümayiş etdirilib. Sərgi Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış igidlərimizin əziz xatirəsinə həsr olunub.

Görüşlər, təltiflər, sərgilər, ekskursiyalar...

Gənclərin İnkişaf və Karyera Mərkəzi Sabirabad nümayəndəliyinin əməkdaşları Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzinin qonağı olublar. Ziyarət zamanı gənclərə müəssisə haqqında ətraflı məlumat verilib, mərkəzin iş prinsipi ilə yaxından tanışlıq olub.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin 24 saylı kitabxana filialı "XII əsrdə Nizami Gəncəvi yaradıcılığında multikultural dəyərlər" başlıqlı onlayn tədbir keçirib. Çıxışlarda dahi şairin yaradıcılığının multikulturalizm və tolerantlıq elementləri ilə zəngin olduğu vurğulanıb. Tədbirdə Nizaminin əsərlərindən parçaları səsləndirilib. Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbi səs-muğam sinfinin V sinif şagirdi Süleyman Hüseynov Qazaxıstanın Nur-Sultan şəhərində onlayn formada keçirilən çoxjanrlı "Art Sensation" beynəlxalq musiqi festivalında 13-15 yaş qrupunda I dərəcəli laureat adını qazanıb. Süleymanın müəllimi Fuad Ramazanov isə təşəkkürnamə ilə təltif olunub. Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov diplomu və təşəkkürnaməni sahiblərinə təqdim edərək onlara yeni nailiyyətlər arzulayıb. Gəncə şəhər MKS-nin oxu zalı ustadlar ustadı Aşıq Alının (1801-1911) anadan olmasının 220 illiyi münasibətilə "Aşıq Alı sənətinin zirvəsi" adlı onlayn ədəbi-bədii gecə keçirib. Çıxış edənlər ustadın Azərbaycan aşıq sənətində yerindən və rolundan danışıblar. Goranboy rayon Mərkəzi Kitabxanasının əməkdaşları N.Gəncəvinin 880 illiyinə həsr olunmuş sərgi təşkil ediblər. Sərgidə şairin həyat və yaradıcılığından bəhs edən 50-dən çox kitab və dövri mətbuat materialları nümayiş etdirilib.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon 5 saylı orta məktəbin direktoru Vüqar Məlikov və 7-ci sinif şagirdləri M.Ə.Sabir adına Göyçay rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində ekskursiyada olublar. Şagirdlərə kitabxana və onun şöbələrinin fəaliyyəti haqqında ətraflı məlumat verilib. MKS-nin 11 saylı Məlikkənd kənd kitabxana filialında "açıq kitabxana" təşkil olunub. Tədbirdə müxtəlif yaş qrupundan şagirdlər və kitabxananın fəal oxucuları iştirak ediblər.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa şəhər Hüseyn Arif adına Uşaq musiqi məktəbinin "Günəş" vokal kvarteti "Üç alov" adlı uşaq və gənclər arasında onlayn beynəlxalq yaradıcılıq festivalında 2-ci yerə layiq görülüb. Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi kitabxanasının Uşaq şöbəsi "Yay məktəbi" çərçivəsində "Mən oxudum, sən də oxu" adlı "nağıl saatı" keçirib. Tədbirdə Fərəhli kənd Kamran Kərimov adına ümumi məktəbin 1-ci və 3-cü sinif şagirdləri iştirak ediblər. Uşaqlara kitablardan maraqlı nağıl və hekayələr oxunub, nağıl qəhrəmanlarının yaxşı cəhətləri barədə fikir mübadiləsi aparılıb.

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon MKS-nin Bayan kənd kitabxanasında "Yay məktəbi" ilə əlaqədar "açıq kitabxana günü" təşkil edilib. Tədbirdə şagirdlər və ali məktəb tələbələri iştirak ediblər. Kitabxanaçı Nigar Nurməmmədova iştirakçıları Nizami Gəncəvinin əsərlərindən ibarət olan kitab sərgisi ilə tanış edib.

Oğuz rayon MKS-nin 19 saylı Dəymədərə kənd kitabxanasında isə "Tariximizi öyrənək" adlı səyahət təşkil edilib. Rayonun Kərimli-Yaqublu ərazisindən başlanan gəzintidə tarix müəllimi Adilə İsmayılova məktəblilərə buradakı kurqanlar haqqında məlumat verib. Balakən rayon Katex kənd Folklor evi "Aşıq Ələsgərin saz-söz dünyası" başlığı altında videokonfrans keçirib. Sənətkarın 200 illiyi münasibətilə təşkil olunan tədbirdə çıxış edənlər Dədə Ələsgərin Azərbaycan xalq şeirinin inkişafına verdiyi töhfələrdən, ədəbiyyatımızda dərin iz qoymasından söz açıblar.

Masallı Regional Mədəniyyət İdarəsi Cəlilabad Xalq teatrının aktyoru Buludxan Buludov teatr sahəsində xidmətlərinə görə regional idarənin fəxri fərmanı ilə təltif olunub. İdarənin rəisi Bəxtiyar Qılıncov fəxri fərmanı aktyora təqdim edərək ona yeni yaradıcılıq uğurları arzulayıb. Masallı rayon Mədəniyyət Mərkəzində regional idarənin təşkilatçılığı ilə keçirilmiş "Yaz festivalı"nın qaliblərinə də diplomlar təqdim olunub. Mərasimdə çıxış edən idarənin rəisi B.Qılıncov festivalın əhəmiyyətini vurğulayıb, qaliblərə xoş arzularını çatdırıb.

Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyindəki Qubadlı rayon Əbülfəz Mehdiyev adına Uşaq musiqi məktəbinin direktoru Əlövsət Sərməsov, Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbinin direktoru Mirkamil Ağamirov və Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbinin direktoru Lətafət Müfidzadə mədəniyyət sahəsində çoxillik səmərəli fəaliyyətlərinə görə fəxri fərmanla təltif ediliblər. İdarənin rəisi Rəşad Əliyev Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində mədəniyyət işçilərinə mükafatları təqdim edib, onlara fəaliyyətlərində nailiyyətlər diləyib.

Bərdə Regional Mədəniyyət İdarəsi Yevlax şəhər MKS-nin 1 nömrəli şəhər kitabxana filialı kiçik yaşlı uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə səyyar kitabxana xidməti təşkil edib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala rayon MKS-nin Həsənabad qəsəbə kitabxana filialında "Biz doğma yurdlarımıza qayıdacağıq" başlıqlı məlumat sərgisi təşkil edilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi tərəfindən təşkil edilən "Kür" ədəbi məclisi üzvlərinin Azərbaycan Yazıçılar Birliyi Gənclər şurasının sədri Fərid Hüseynlə görüşü keçirilib. Kürdəmir rayon Mərkəzi Kitabxanasında gerçəkləşən tədbiri regional idarənin rəisi Faiq Xudanlı açaraq F.Hüseynin yaradıcılığı haqqında fikirlərini bölüşüb. Sonra şair "Kür" ədəbi məclisi üzvlərinin suallarını cavablandırıb. Sonda müəllif oxucular üçün kitablarını imzalayıb.

Hazırladı: NURƏDDİN

№51 (1828)
9 iyul 2021
www.medeniyyet.az

“İncəsənəti tamaşaçı və cəmiyyət üçün maraqlı bir məkana çevirməliyik”

Fərəh Acalova: “İncəsənətdə, o cümlədən teatr sahəsində təhsil və təlim prioritet istiqamətlərdən biridir”

Bir müddət əvvəl Mədəniyyət Nazirliyinin nümayəndə heyəti Rusiya Federasiyasına səfər etmişdi. Nümayəndə heyətinin tərkibinə nazirliyin İncəsənət şöbəsinin müdiri Fərəh Acalova da daxil idi. Səfərin məqsədi mədəniyyətin müxtəlif sahələri, o cümlədən incəsənət təhsili ilə bağlı Rusiya təcrübəsini öyrənmək, fikir mübadiləsi aparmaq idi. Fərəh Acalova ilə səfərin təəssüratları və nəticələri barədə söhbət etdik.

– Fərəh xanım, öncə Rusiyaya səfərlə bağlı ümumi təəssüratı bölüşməyinizi istərdik...

– Görüşlər keçirdiyimiz müəssisələrin rəhbərləri bizi çox yaxşı, isti münasibətlə qarşıladılar. Bizim mədəniyyətimiz, incəsənətimiz, xüsusən də musiqi sənətimiz Rusiyada dəyərləndirilir. Rusiyadakı həmkarlarımız Bakının çox maraqlı, perspektivli, cəlbedici bir məkan kimi önəmini qeyd edirlər. Həm festivallar baxımından, həm də ümumiyyətlə, mədəni həyat baxımından. Bunu söhbətlərində də hiss etmək olurdu.

– Görüşlərin nəticələri necə oldu? Hansı razılıqlar əldə edildi?

– Düzünü deyim, mənim üçün səfərin əsas məqsədi tanışlıq idi. Yəni oradakı həmkarlarla, mədəniyyət müəssisələri ilə tanış olmaq, gələcəkdə əməkdaşlıq quracağımız tərəfdaşları şəxsən tanımaq və əlaqə yaratmaq. Ona görə də hər hansı konkret razılaşma haqqında danışmaq bir az çətin olardı. Amma görüşlər çox faydalı oldu. Moskva Dövlət Filarmoniyasında, “Gelikon-Opera”nın rəhbəri Dmitri Bertmanla, “Roskonsert”in baş direktoru Andrey Malışevlə maraqlı görüşlərimiz oldu. “Roskonsert”lə teatrlarımızın qastrol səfərləri, festival və müsabiqələrlə bağlı geniş fikir mübadiləsi etdik. Pillə-pillə müəyyən etdiyimiz istiqamətlər üzrə bu işləri reallaşdıracağıq.

Rusiya Teatr Sənəti İnstitutunda (GİTİS) rektor Qriqori Zaslavski ilə görüşdük. Bizim çox istedadlı həmyerlimiz Elşən Məmmədov orada Prodüserlik kafedrasının rəhbəridir və onun da iştirak etdiyi bu görüşdə maraqlı söhbətimiz oldu. Onlarla bir neçə əməkdaşlıq ideyası haqqında fikir mübadiləsi apardıq. İnanırıq ki, əgər hər şey planlaşdırdığımız kimi getsə, artıq bu ildən biz GİTİS-lə müəyyən əlaqələr qura biləcəyik. Əvvəlcədən detalları demək istəmirəm. Çünki hələ biz bu layihə üzərində işləyirik. Eyni zamanda qarşı tərəfdən asılı olan səbəblər də var. İndilik bunu deyim ki, pandemiya şəraiti imkan versə, bu ilin ikinci yarısında GİTİS-lə təlimlərə başlamağı düşünürük.

– Bizim əvvəlki illərdə də onlarla əməkdaşlıq əlaqələrimiz mövcud idi. Azərbaycanlı tələbələr orada təhsil alırdılar...

– Bəli, olub. Onu deyə bilərəm ki, Mədəniyyət Nazirliyi olaraq bizim üçün təhsil və təlim, o cümlədən teatr sahəsində, prioritet istiqamətlərdən biridir. Bunun üzərində hazırda iş aparılır. Təhsil Nazirliyi ilə də bu işlə bağlı danışıqlar olacaq. Çünki mədəniyyət sahəsində olan ali təhsil müəssisələri onların tabeliyindədir. Təhsil Nazirliyi və Mədəniyyət və İncəsənət Universiteti ilə danışıb bu istiqamətdə səmərəli birgə iş aparmaq məqsədilə perspektivləri və problemləri müzakirə edəcəyik. GİTİS-lə iş aparmaq isə belədir ki, ən yaxşı əməkdaşlıq çərçivəsi universitetlər arasında birbaşa mübadilədir. Hazırda mümkün sxemlər üzərində düşünürük. Ola bilsin gələcəkdə Q.Zaslavskinin Bakıya səfərini təşkil edək və burada artıq mümkün əməkdaşlıq modellərini müəyyənləşdirək.

– İllərdir bizdə teatr sahəsində texniki əməkdaşların peşə bacarıqlarına yiyələnməsi və təhsili ilə bağlı müəyyən axsamalar var. Rusiya ilə əməkdaşlıqda bu istiqamətdə də addım atılacaqmı?

– Biz bu problemdən xəbərdarıq və o, diqqət mərkəzimizdədir. Rusiyada görüşlər zamanı bu məsələ ilə bağlı danışıqlar apardıq. Həm GİTİS, həm də Moskva şəhərinin aparıcı musiqili teatrlarından biri sayılan “Gelikon-Opera”nın bədii rəhbəri Dmitri Bertmanla. Deyə bilərəm ki, Rusiya tərəfi bu sahədə əməkdaşlığa hazırdır. Bizi bu yöndə həm təlim, həm stajkeçmə, həm də təhsilə dəvət edirlər. Bu prosesləri sadəcə sistemləşdirməliyik ki, davamlı olsun. Hazırda bu məsələ üzrə iş aparılır, inanıram ki, uğurlu olacaq.

– Bildiyimiz qədəri ilə Xalq artisti, Fərəc Qarayevlə görüş zamanı Azərbaycandakı festivallarla bağlı fikir mübadiləniz olub. Pandemiya səbəbindən bu il ənənəvi festivallar təşkil edilmədi. Bəs gələcəkdə bu festivalların formatında dəyişiklik gözlənilirmi?

– Fərəc müəllimlə Moskvada müxtəlif məsələlər ətrafında dolğun müzakirələrimiz oldu. Təbii ki, onun üçün çox doğma bir mövzu Qara Qarayev adına Müasir Musiqi Festivalıdır. O çox arzulayır ki, festival bərpa olunsun və biz də bunu dəstəkləyirik. Ümumiyyətlə, festivallarla bağlı demək istərdim ki, yeniliklər olacaq. Hazırda yeni formatlar üzərində çalışırıq. Məsələn, Üzeyir Hacıbəyli festivalı ilə bağlı planlarımız var. Növbəti festivalda gəncliyə daha çox yer verməyi nəzərdə tuturuq. Əsas proqramla yanaşı gənc ifaçılar üçün də ayrıca proqram hazırlayırıq. Beləliklə, festivalda gənclər xətti xüsusi vurğulanacaq. Ümumiyyətlə, gənc bəstəkarlar və ifaçılarımız üçün ölkə daxilində daha geniş meydan yaratmaq bizim əsas vəzifələrimizdən biridir.

> “Rusiyada təkcə paytaxtda deyil, digər şəhərlərdə, regionlarda teatr çox populyardır. Pandemiya şəraitinə və bilet satışının 50 faiz olmasına baxmayaraq, əksər teatr zalları tamaşaçılarla doludur. Arzu edirəm ki, bizdə də teatr bu dərəcədə tamaşaçı cəlb edə bilsin”.

– Rusiya ilə mədəni əlaqələrdə hansı sahələrdə əməkdaşlığa daha çox ehtiyac duyulur?

– Deməzdim ki, hansısa konkret sahə digərindən çox önəmlidir. Rusiya ilə tarixən əlaqələr olub və mədəniyyətlərimiz bir-birinə bağlıdır. Onlar da bizdən nəsə götürürlər, eləcə də biz də onlardan. Bu bir mübadilədir. Mən bunu belə görürəm. Bu gün Rusiyada teatr son dərəcədə populyardır. Təkcə paytaxtda deyil, digər şəhərlərdə, regionlarda. Arzu edirəm ki, bizdə də teatr bu dərəcədə tamaşaçı cəlb edə bilsin. Rusiyada pandemiya şəraitinə və bilet satışının 50 faiz olmasına baxmayaraq, əksər teatr zalları tamaşaçılarla doludur. Biz incəsənəti tamaşaçı və cəmiyyət üçün maraqlı bir məkana çevirməliyik, sözün yaxşı mənasında populyarlaşdırmalıyıq. Bu cəhətdən mənə elə gəlir ki, Rusiya ilə təcrübə mübadiləsi vacibdir.

– Bir müddət əvvəl Türkiyədə də səfərdə oldunuz. Həmin görüşlərin nəticəsi ilə bağlı fikirləriniz də maraqlıdır...

– Türkiyə ilə incəsənət sahəsində əməkdaşlıqdan danışarkən biz ilk növbədə kinonu qeyd edə bilərik. Bu sahədə geniş əməkdaşlıq etmək imkanları var. Ümumilikdə incəsənəti götürsək, bizim çoxsaylı sənət adamları orada dərs deyir, mütəxəssis yetişdirirlər. Bu bizim üçün bir fəxrdir. Türkiyədə incəsənət sahəsində qabaqcıl infrastruktur mövcuddur. Digər tərəfdən, bu ölkədə müvafiq texniki peşələr də olduqca inkişaf edib və bu istiqamətlər üzrə təlim, staj keçmə imkanlarını araşdırırıq.

– Mədəniyyət sahəsinə yeni təyin olunmusunuz. Bu sahə sizə kənardan necə görünürdü?

– Kənardan bir çox işlər sadə görünə bilər. Məsələn, hansısa nazirliyin fəaliyyəti ilə bağlı, bu sahədə iş görülmür, ya müəyyən sahədə inkişaf yoxdur kimi fikirlər yarana bilər. Amma bu işin içində olanda başa düşürsən ki, gözəçarpan irəliləyişi əldə etmək böyük vaxt və səy tələb edir.

– Maraqlı müsahibəyə görə təşəkkür edirəm.

– Sağ olun.

Lalə AZƏRİ

Bakı Uşaq və Gənclər Teatrı “Qaliblər” düşərgəsində

Bakı Uşaq və Gənclər Teatrı Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanların övladları üçün təşkil olunan ”Qaliblər” düşərgəsində şou proqram təqdim edib.

“Qaliblər” düşərgəsi Şüvəlan qəsəbəsi Humanitar fənlər təmayüllü gimnaziyada “For Azerbaijan” Xeyriyyə Təşkilatının təşəbbüsü, Dövlət Miqrasiya Xidmətinin təşkilati dəstəyi, eləcə də Təhsil, Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar, Ekologiya və Təbii Sərvətlər, Mədəniyyət nazirlikləri, Sosial Xidmətlər, Bakı Nəqliyyat və Dövlət Turizm agentlikləri, digər dövlət qurumları, özəl sektor və qeyri-hökumət təşkilatlarının birgə səyi ilə təşkil edilib.

14 gün davam edəcək düşərgədə 13-14 yaşlı uşaqlar üçün müxtəlif mövzuları əhatə edən təlimlər, əyləncəli və intellektual oyunlar, idman və incəsənət sahələri üzrə dərslər, Bakı şəhərinin görməli yerlərinə ekskursiyalar nəzərdə tutulub.

Bakı Uşaq və Gənclər Teatrı “Qaliblər” düşərgəsinin sakinlərinə maraqlı proqram təqdim edib. Teatrın aktyorları Niyaz İlyasoğlu və Mehman Piriyevin aparıcılığı ilə keçən tədbirdə sehrbaz Tofiq İsgəndərlinin illüziya nömrələri, Zeynəb Kəngərli, Əfruz Əliyeva, Ədalət Ağaverdizadənin ifasında musiqilər, Könül Şahbazova, Natiq Fərzəliyev, Gülər Ləzgiyeva, Türkan Şahmarlı, Nərminə Məhərrəmova, Sənan Fərzəliyev, Toğrul İsabəyli, Rəhimə Abdinova və Emin Balayevin ifasında tamaşalardan kiçik parçalar, rəqslər nümayiş olunub. Uşaqlarla interaktiv oyunlar keçirilib, qaliblərə hədiyyələr təqdim olunub.

“Biz qaliblərik” devizi altında keçən tədbir uşaqlar tərəfindən maraqla qarşılanıb.

“Caspian Energy Club” mədəni inkişafa və kinematoqrafiyaya dəstək vermək istəyir

”Caspian Energy Club”un Mədəniyyət və kinematoqrafiya üzrə komitəsi yaradılıb. Komitənin məqsədi ölkə daxilində, eləcə də ölkə hüdudlarından kənarda Azərbaycan mədəniyyətinin və kinematoqrafının inkişafında, təbliğində fəal iştirak etməkdir.

“Caspian Energy Club”un sədri və baş icraçı direktoru Telman Əliyev bildirib ki, komitə mədəniyyət, o cümlədən kinematoqrafiya sahəsində fəaliyyət göstərən müəssisələrin iqtisadi inkişafı üçün əlverişli şəraitin, rəqabətli bazarın yaradılması və beynəlxalq əlaqələrin qurulması istiqamətində Mədəniyyət Nazirliyi və digər qurumlarla sıx əməkdaşlıq etməyi planlaşdırır.

Əməkdar mədəniyyət işçisi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının katibi Nəriman Məmmədov komitənin sədri seçilib.

Sıralarında 50 ölkədən 5000-dən çox şirkət və təşkilatı birləşdirən “Caspian Energy Club” 2002-ci ilin iyununda yaradılıb. “Biznes-hökumət” dialoqunun fəal iştirakçısı olan klubun əsas məqsədi Azərbaycanda və “Caspian Energy Club”un fəaliyyət göstərdiyi digər ölkələrdə investisiya və işgüzar mühitin yaxşılaşdırılmasında, həmçinin müxtəlif formatlarda dialoqun stimullaşdırılmasında fəal iştirak etməkdir.

“Caspian Energy Club” bu istiqamətdə mütəmadi olaraq müxtəlif tədbirlər təşkil edir. Qərargahı Bakıda yerləşən “Caspian Energy Club”un Gürcüstan və Qazaxıstanda rəsmi nümayəndəlikləri, həmçinin müxtəlif ölkələrdə səlahiyyətli nümayəndələri var.

“Oyuq”da növbəti dərs

Pandemiyalı teatr mövsümünün sonlarında Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı nəzdindəki ”Oyuq” teatr-studiyasında növbəti ustad dərsini izlədim. Studiya rəhbərliyinin uşaqlarda səhnə, efir mədəniyyətini formalaşdırmaq, geniş tamaşaçı auditoriyası qarşısında özünüifadə imkanlarını təkmilləşdirmək məqsədilə təşkil etdiyi silsilə ustad dərslərinə müxtəlif televiziyalardan tanınmış simalar cəlb olunub.

Bu dəfə istedadlı “Oyuq”çuların qarşısına uzun illər televiziya və radioda aparıcı, proqram müəllifi kimi məşhurlaşan, dövlət tədbirlərinin aparıcı simasına çevrilən Emin Musəvi çıxmışdı. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən “ASAN Radio”nun direktoru uşaqlara televiziya və radioda çalışmağın incəliklərindən danışacaqdı.

Həvəskar balaca aktyorlar bu dəfə tamaşaçı zalında, qonaq isə onların qarşısında – səhnədə idi.

Uşaqlar kimi qonaq da sevincək və bir az həyəcanlı idi. Onları çox sevdiyi və bu görüşə həvəslə hazırlaşdığı ilk baxışdan bəlli olurdu. Hər uşağa fərdi yanaşmağa çalışır, hər fürsətdə onlara mütləq nə isə öyrətmək istəyirdi.

Uzunillik televiziya, aparıcılıq təcrübəsindən danışan Emin bəy qazanılan uğurun çox qısa zamanda itirilə biləcəyinin də incə, uşaqların anlaya biləcəyi dildə izahını verirdi. Arabir uşaqlıq xatirələrini, xəyallarını, arzularını da yadına salır, dinləyicilərə məqsədə gedən yolun ağır zəhmətdən, durmadan oxumaqdan, mükəmməl təhsildən və yüksək əxlaqdan keçdiyindən bəhs edirdi.

Bu gün internetin, sosial şəbəkələrin, populyar oyunların uşaqların təhsilinə, davamlı mütaliəsinə müəyyən mənada mane olduğunu da xatırladır, imkan düşdükcə özlərini təkmilləşdirmək üçün dərs vəsaitlərindən əlavə bədii ədəbiyyat, xüsusən nağıllar, maraqlı hekayələr oxumağı tövsiyə edir, diqqətə çatdırırdı.

Çox dil bilməyin, bir neçə xarici dildə sərbəst danışmağın böyük üstünlük olduğunu qeyd etməklə yanaşı, ana dilimizdə səlis, gözəl danışmağın bir vətəndaşlıq borcu olmasını vurğulayır, uşaqlara dilimizə yeni gələn sözlərin yalnız vacib, əvəzləyicisi olmadıqda deməyi məsləhət görürdü.

Uşaqların çoxsaylı suallarını da sevə-sevə cavablandıran telesima zaman-zaman canlı efir vaxtı qarşılaşdığı texniki çətinliklərdən, baş verən xətalardan da söz açdı.

Uşaqların “Məşhur olmaq necə hissdir?” sualına “Əslində, mən də sizin kimi uşaq olanda məşhur olmaq arzusu ilə yaşayırdım. Amma indi anlayıram ki, bu, elə də asan deyil. Hər kəs səni tanıyırsa və efirdə olduğu kimi, həyatda da müəyyən qəlibdə, intizamda, formada olmağını istəyirsə, bu sənin bir az sərbəstliyini alır. Demirəm ki, bu pisdir, sadəcə, mən də arada sizin kimi sərbəst, istədiyim kimi olmaq istəyirəm. Sonra ətrafdakıları nəzərə alıb dayanıram” deyib gülümsündü. Ardınca “Elə zənn etməyin ki, məşhur olmaq lazım deyil. Hər birinizi gələcəyin aktyoru, rejissoru, ifaçısı kimi görürəm. Hər birinizin üzündən məhz bu yağır. Tamaşa və konsertlərinizə baxmışam. Hər dəfə də çox sevinmişəm. Çünki teatrı sevən, onun səhnəsində olan istedadlı insanlara daim ehtiyac var. Teatr bizi insan olaraq çox fərqli hisslərə, xəyallara qovuşdurur. Buradan sizlərə tamaşa edərkən, çox sevinirəm. Məncə, bugünlük bu qədər yetər, qalanını sizi səhnədən növbəti dəfə alqışlayanda deyəcəm” deyib səhnədən enən radio rəhbəri təəssüratını bizimlə bölüşdü.

– Uşaqlarla hər görüşdən böyük zövq alıram. Bu gün bir neçə görüşüm olub və günün sonunda çöhrəsindən nur yağan bu uşaqlarla təmas mənə böyük enerji verdi. Düşünürəm ki, belə görüşlər çox olmalı və cəmiyyətin tanıdığı simalar azyaşlılar, onların zövqləri, arzu və istəkləri ilə maraqlanmalıdır. Bu görüşdən özüm üçün də xeyli nəticə götürdüm. Bir radio rəhbəri olaraq təəssüflə qeyd etməliyəm ki, televiziyalarımızda, radio dalğalarında uşaqların maraqlarına xidmət edib, onları istiqamətləndirən verilişlər, yayımlar çox azdır. Əslində, müxtəlif mövzu və formatlarda uşaq proqramları, müzakirə klubları, istənilən uşağa təsir gücünə malik verilişlər olmalıdır. Unutmaq olmaz ki, biz onlara necə təsir ediriksə, hansı informasiyanı ötürürüksə, uzağı bir neçə ilə onun nəticəsini görürük. Uşaq belədir ki, informasiyanı maraqlı, ona uyğun, anlaya biləcəyi forma və üsullarda çatdırdıqda, yadında qalır. Biz onları öyrədərkən, sanki özümüz də öyrənirmiş kimi başa salsaq, daha yaxşı və tez qavrayarlar. Bu gün lazımsız informasiyanı uşaqlara elə “bərbəzəkli” təqdim” edirlər ki, istər-istəməz müdaxilə etməyə bilmirsən. Nümunələr sadalamadan yetəri qədər neqativ halın yaşandığını sizli-bizli görürük. Əgər biz uşaqlara yaxşı nümunə göstərə bilmiriksə, onun beynini, məlumat boşluğunu asanlıqla neqativ, gərəksiz informatorlar dolduracaq. Bu informatorlar da animasiyadan oyunlara kifayət qədər geniş və çoxformalıdır.

Uşaqların teatr, sənət ruhu və zövqündə böyüməsi çox vacibdir. Hələ də pandemiya şəraitində yaşayırıq və təəssüf ki, bir valideyn kimi də uşaqlarımızı teatra apara bilmirik. İnanın, onları nə qədər müxtəlif, maraqlı, heyrətamiz əyləncələrə aparsaq da, heç biri teatrı, onun ecazkar təsir gücünü əvəz edə bilmir. Odur ki, valideynlər mütləq uşaqlarını teatra aparmalı, onlarda uşaqlıqdan bu sənətə tamaşaçı marağı yaratmalıdır. Baxın, artıq müəyyən yaşa gəlib çatmışam, amma hələ də uşaq vaxtı getdiyim teatr tamaşaları, sirk nümayişləri, konsertlər xatirimdədir. Xüsusən bu teatr həm maraqlı kukla tamaşaları hazırlamaq, həm də dinamik, çağdaş uşaqların zövqünə xidmət edən nümunələr ərsəyə gətirmək imkanındadır. Uşaqlara teatrın çox vacib mənəvi qida yeri olduğunu izah etməliyik. Böyüdükdən sonra zatən onun öz seçimi olacaq. Nə qədər ki, uşaqdırlar, onları yüksək, peşəkar, klassik sənətə, yaradıcılıq sahələrinə maraqlı yetişdirməliyik.

H.NİZAMİQIZI

Böyük şairlik istedadı, maarifçilik əzmi

XIX əsrdə klassik poeziya ənənələrini yaradıcı şəkildə davam etdirən söz sənətkarlarımızdan biri də Seyid Əzim Şirvanidir. Şair Məhəmməd Füzuli, Saib Təbrizi ənənələrinin layiqli davamçısı kimi tanınıb. Görkəmli şair incə ruhlu, lirik, satirik, əxlaqi-tərbiyəvi məzmunlu əsərlər qələmə alıb, geniş maarifçilik işi aparıb.

Seyid Əzim Seyid Məhəmməd oğlu Mir Cəfərzadə 9 iyul 1835-ci ildə Şamaxı şəhərində ruhani ailəsində dünyaya göz açıb. 7 yaşında atası vəfat edir, anası ilə Dağıstanın Yaqsay kəndində yaşayan ana babası Molla Hüseynin yanına gedirlər. Əzim babasının himayəsində böyüyür, onun təlim-tərbiyəsinə diqqət yetirilir. Əzim Dağıstanda 10 il qalır və təhsilini də burada alır. Fars və ərəb dillərini də dərindən öyrənir. Araşdırmalardan məlum olur ki, o, bu müddət ərzində Dağıstanda bir neçə yerli xalqın da dilini mənimsəyir. Seyid Əzim həm də ədəbiyyata maraq göstərir, klassik şairlərin əsərlərini mütaliə edir. Özü də şeirlər yazmağa başlayır.

Seyid Əzim 1853-cü ildə, 18 yaşında anası Gülsüm xanımla Şamaxıya qayıdır. Məşədi Mövsümün qızı Ceyran xanımla ailə qurur. İki il sonra təhsilini artırmaq üçün İraqa gedir. Bir neçə il Nəcəf və Bağdad şəhərlərində təhsil aldıqdan sonra Şama (indi Suriyanın paytaxtı Dəməşq şəhəri) gedir. Orada bir müddət qaldıqdan sonra Şamaxıya qayıdır. Sonra yenə səfərə çıxır. Bu dəfə Məkkə və Mədinədən keçir və Qahirə şəhərində olur. O, səfər etdiyi şəhərlərdə təkcə elmini artırmır, eyni zamanda Şərq mühitinə yaxından bələd olur...

1859-cu ildə Şamaxıda güclü zəlzələ baş verir, böyük dağıntı olur. Bu hadisədə Seyid Əzimin ailəsi də zərər çəkir. Bütün bunlara baxmayaraq, o, şəhərdə yeni üsulla "Məclis" adlı məktəb açır. Mollaxanadan fərqli olaraq, bu məktəbdə şagirdlərə ana dili ilə yanaşı, rus və fars dilləri də öyrədilir, dünyəvi elmlərdən ibtidai məlumat verilirdi. Zaqafqaziya Tədris Dairəsi Seyid Əzim Şirvaninin maarif sahəsindəki xidmətlərini yüksək qiymətləndirir, 1886-cı ildə şair gümüş medalla təltif edilir.

Seyid Əzim pedaqoji fəaliyyətlə məhdudlaşmır, eyni zamanda maarifçi və tənqidi-satirik şeirlər də qələmə alır. Şeirlərində mövhumatı, nadanlığı qamçılayır, insanları elmə, təhsilə səsləyir. Şairin mühitdəki problemləri açıb göstərən şeirləri mövhumatçı dindarların kəskin etirazına səbəb olur. "Əkinçi"də dərc etdirdiyi yazılardan sonra yuxarı dairələrdə də onu sevməyənlər, ona düşməncəsinə yanaşanlar çoxalır. Bir müddət sonra S.Ə.Şirvaniyə qarşı şəhər ruhanilərinin dözümsüzlüyü açıq şəkildə özünü göstərir. Digər tərəfdən Şamaxıda dövlət məktəbləri açılır. Bu məktəblərin təsiri nəticəsində get-gedə S.Əzimin məktəbi öz fəaliyyətini dayandırır. Beləliklə, 1879-cu ildə Seyid Əzim hökumət nümayəndələri ilə ruhanilərin işbirliyi sayəsində müəllimlikdən kənarlaşdırılır. Vəziyyətin belə alındığını görən şair Tiflis şəhərinə gedir. Qafqaz Maarif İdarəsi rəisinə işdən haqsız çıxarıldığını bildirir. Bəzi maarifpərvər şəxslərin də səyləri nəticəsində sevdiyi peşəsinə qayıda bilir. Şamaxıda yeni açılan şəhər məktəbinə müəllim təyin olunur və ömrünün sonuna qədər Azərbaycan dili və ədəbiyyat dərslərini tədris edir.

S.Ə.Şirvani zəngin bədii irs yadigar qoyub. O, qəzəl, müxəmməs, aşiqanə lirik şeirlər, mənzum hekayə, təmsil, maarifçilik ruhunda əxlaqi-didaktik əsərlər, habelə məqalələr yazıb. O həmçinin İran, Türkiyə, Rusiya və Azərbaycan şairləri haqqında məlumat verən "Təzkirə"nin müəllifi olub. Şair "Məcmueyi-asari-Hacı Seyid Əzim Şirvani" və "Tacül-kütub" ("Kitabların tacı"), "Rəbiül-ətfal" ("Uşaqların baharı") adlı dərsliklər də yazıb. S.Ə.Şirvani "Tacül-kütub" kitabını əlyazma şəklində Qori Müəllimlər Seminariyasının Tatar (Azərbaycan) şöbəsinin müdiri A.O.Çernyayevskiyə göndərib. O da həmin kitabdan bir neçə hekayəni tərtib etdiyi "Vətən dili" kitabında çap etdirib. Seyid Əzim eyni zamanda Şamaxıda fəaliyyət göstərən "Beytüs-Səfa" ədəbi məclisinin rəhbəri olub.

Onu da qeyd edək ki, şairin bədii irsi Azərbaycan və fars dillərində olmaqla iki böyük külliyyatdan (divan) ibarətdir. Yaradıcılığının çox hissəsini qəzəllər təşkil edir. Bunların arasında həyat eşqi, nikbin əhval-ruhiyyə və dini etiqadlar xüsusi yer tutur. Şairin şeirə ruh verən dərin lirikasını məhz onun qəzəllərində görmək olur:

Gecə gördüm səni,
ey afəti dövran, yuxuda,
Ki, elərdin mənə
yüz lütfi-firavan yuxuda.

S.Ə.Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi şeirləri ilə başlayır. Bu zamandan etibarən şairin yaradıcılığında realizm üstünlük təşkil edir. Onun realist şeir yaradıcılığına keçməsində Azərbaycan milli mətbuatının qaranquşu olan "Əkinçi" qəzeti böyük rol oynayır. Bu qəzet eyni zamanda şairin yaradıcılığına mövzu rəngarəngliyi gətirir. Nəticədə müəllif müasir həyatın tələblərinə uyğun şeirlər qələmə alır. Şair "Əkinçi"də dərc olunan və qəzetin yaradıcısı, böyük maarifçi, pedaqoq Həsən bəy Zərdabiyə müraciətlə başlayan "Qafqaz müsəlmanlarına xitab" şeirində yalançı dərviş, molla və mərsiyəxanların iç üzünü açıb tənqid atəşinə tutur:

Hər vilayətdə var beş-on kəsəbə,
Əlli min seyyidü, axund, tələbə,
Əlli dərviş, əlli mərsiyəxan,
Hamının sözləri tamam yalan.
Hamının fikri xəlqi soymaqdır,
Quru yerdə bu xəlqi qoymaqdır...

Həsən bəyin maarifçi təşəbbüslərini alqışlayan şair həmin şeirdə onu savadlı və xeyirxah bir insan kimi qiymətləndirir. "Əkinçi"də dərc etdirdiyi şeirlərilə müasirlərini bu qəzeti oxumağa və kömək etməyə çağırır:

Bəs "Əkinçi" cəlalımızdı bizim,
Nasehi-xoşməqalımızdı bizim.
Səy edək, ey güruhi-niksifat,
Etməsin ta bizim "Əkinçi" vəfat...

Şair gənc nəslin təlim və tərbiyəsini saxta din xadimlərinə tapşırmamağı tövsiyə edib. Onların kəmsavadlığını "Müctəhidin təhsildən qayıtması", "Alim oğul ilə avam ata" kimi əsərlərində satira atəşinə tutub. "Yerdəkilərin göyə şikayət etmələri", "Dəli şeytan", "Məkri-zənan", "Bəlx qazisi və xarrat" və s. satiraları müəllifi dövrünün realist şairi kimi tanıdıb.

S.Ə.Şirvani yaradıcılığında məhəbbət mövzusu da aparıcı yer tutur. Şair lirik qəzəllərində saf, ülvi məhəbbəti sənətkarlıqla qələmə alıb. Bədii təsvir və ifadə vasitələrindən uğurla bəhrələnərək qəhrəmanın daxili aləmini, hiss və düşüncələrini böyük ustalıqla açmağa müvəffəq olub.

Dövrünün böyük maarifçi şairi Seyid Əzim Şirvani 20 may (yeni təqvimlə 1 iyun) 1888-ci ildə Şamaxı şəhərində vəfat edib, öz vəsiyyətinə əsasən, Şahxəndan qəbiristanlığında dəfn olunub. 2015-ci ildə şairin anadan olmasının 180 illiyi ölkəmizdə geniş şəkildə qeyd edilib.

Savalan FƏRƏCOV

Vətən müharibəsində həlak olan sərhədçilərin xatirəsinə

Dövlət Sərhəd Xidməti (DSX) Çevik Hərəkət Qüvvələrinin N saylı hərbi hissəsində Dövlət Sərhəd Xidmətinin Vətən müharibəsində həlak olmuş hərbi qulluqçularının xatirəsinə həsr olunmuş abidə-lövhənin açılış mərasimi keçirilib.

DSX-nin Mətbuat mərkəzindən bildirilib ki, qranit abidə-lövhədə Vətən müharibəsində şəhid olmuş qəhrəman sərhədçilərin fotoşəkilləri və adları həkk olunub, dövlət bayrağı ucaldılıb.

Tədbirdə DSX-nin rəisi, general-polkovnik Elçin Quliyev çıxış edərək bildirib ki, xalqımızın ədalət və haqq savaşında tarixi Zəfərin əldə edilməsində misilsiz fədakarlıq göstərən, ölkəmizin ərazi bütövlüyü uğrunda özlərini fəda edərək bizlərə sonsuz qürur hissi yaşadan Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi hər zaman minnətdarlıqla yad ediləcək. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizin Qələbəsi ilə bitən Vətən müharibəsində sərhədçilər də döyüş tapşırıqlarını uğurla icra ediblər. Müqəddəs savaşda sinələrini sipər edən bütün qəhrəmanlarımızın əziz xatirələri daim uca tutulacaq, onların şücaəti gələcək nəsillər tərəfindən xalqımızın əzmkarlıq, fədakarlıq salnaməsi kimi vəsf olunacaq.

Tədbirin sonunda Vətən müharibəsində göstərdikləri şücaət və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təltif edilmiş sərhədçilərə orden və medallar təqdim olunub.

İncəsənət və musiqi məktəbləri şagirdlərinin uğurları

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Fikrət Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbinin şagirdləri ABŞ-ın Florida ştatının Aventura şəhərində təşkil olunan VI "Florida Keys" beynəlxalq musiqi müsabiqəsində uğurla iştirak ediblər.





Azərbaycanın görkəmli bəstəkarı Cövdət Hacıyevin şərəfinə keçirilən "Florida Keys" beynəlxalq müsabiqəsi onlayn formatda keçirilib. Müsabiqənin təşkilatçısı bəstəkarın qızı, Florida ştatında fəaliyyət göstərən Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası nəzdində təhsil və mədəniyyət komitəsinin sədri Pərvin Muradova-Dilbazidir.

5 yaşdan 35 yaşadək musiqiçilərin qatıldığı "Florida Keys" müsabiqəsi qaliblər qarşısında geniş imkanlar açır. Builki müsabiqə iştirak etmək üçün iyunun 12-dək açıq olub.

Fikrət Əmirov adına İncəsənət məktəbinin zərb alətləri ixtisası üzrə şagirdi Əli Manaflı müsabiqədə I yerə, fortepiano ixtisası üzrə şagirdi Turan Cəfərzadə II yerə layiq görülüblər.

Müsabiqənin şərtlərinə əsasən, I yerin mükafatçısı Əli Manaflı 2022-ci il aprelin 5-də mötəbər konsert salonu sayılan "Carnegie Hall"da keçirilən qala-konsertdə iştirak hüququ əldə edib. II yerin mükafatçısı Turan Cəfərzadə isə Paris Konservatoriyasının professoru, tanınmış pedaqoq Rena Şereşevskayadan ustad dərsi almaq imkanına layiq görülüb.

Müsabiqənin təşkilatçısı Pərvin Muradova-Dilbazi şagirdlərin uğurları ilə bağlı məktəbin direktoru Adilə Yusifovaya təbrik məktubu göndərib. "Rəhbərlik etdiyiniz məktəbdə belə istedadlı, perspektiv şagirdlərin təhsil alması bir azərbaycanlı kimi məni də olduqca qürurlandırır. Çox arzu edərdim ki, gələcəkdə gənc müsabiqə iştirakçılarının repertuarına Azərbaycan bəstəkarlarının – Ü.Hacıbəyli, Q.Qarayev, C.Hacıyev, F.Əmirovun əsərləri salınsın. Onu da qeyd etməliyəm ki, bu ilin final mərhələsinə yüksələnlər arasında Azərbaycan bəstəkarlarının əsərlərinə müraciət edən kifayət qədər namizəd var idi. Azərbaycan musiqisinin dünyada tanınması bizi çox sevindirir", – deyə o, məktubda yazıb.

Şagirdləri müsabiqəyə hazırlaşdıran müəllimlər S.Süleymanlı və G.Zairova müsabiqənin təşkilatçıları tərəfindən diplomla təltif edilib və onlara təşəkkür məktubları ünvanlanıb.

***

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin 33 nömrəli Musiqi məktəbinin fortepiano ixtisası üzrə şagirdi Nərgiz Zülfüqarlı Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən "New Vision Art" Beynəlxalq incəsənət müsabiqəsində birinci dərəcəli diploma layiq görülüb.

İdarədən bildirilib ki, Nərgiz müsabiqəyə Cahangir Zülfüqarovun "Fantaziya" əsəri ilə qatılıb.

Bu, Nərgizin ilk uğuru deyil. Bundan əvvəl o, Almaniyada keçirilən "Pro Art Germany" Beynəlxalq incəsənət festivalının Qranpri mükafatına layiq görülüb.

"New Vision Art" müsabiqəsi münsiflər heyətinin qərarı ilə Nərgizin müəllimi Sevda Ağayeva təşəkkürnamə ilə mükafatlandırılıb.

Bu yol Şuşaya gedir

Şuşanın düşməndən azad edilməsinin mənəvi rəmzi olan "Zəfər yolu"nun inşası davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən bildiriblər ki, başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürən və Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanan "Zəfər yolu"nun uzunluğu 101 kilometrdir. Yol 2 hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilir.

Hazırda yolboyu genişmiqyaslı tikinti işləri icra edilir. Yolun ilk 6 km-lik hissəsində layihəyə uyğun olaraq yeni yol yatağının inşası, yolun profilə salınması işləri həyata keçirilib və yeni asfalt-beton örtüyünün alt layı çəkilib. Yolun 34-51-ci km-lik hissəsində torpaq işləri, 42-44-ci km-lik hissədə isə torpaq və asfalt-beton işləri başa çatdırılıb. Eyni zamanda 51-76-cı km-lik hissədə qazma işləri tamamlanıb, bəzi hissələrdə yol əsasının alt layının tikintisinə də başlanılıb və paralel olaraq asfaltlanma işləri icra olunur.

Yol boyunca 3 yeni avtomobil körpüsünün inşası da davam etdirilir. Körpülərin uzunluqları 33, 99 və 75 metr olmaqla yolun 1-ci, 26-cı və 57-ci km-lik hissələrində layihələndirilib.

"Zəfər yolu"nun tikintisini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı" MMC və "7 nömrəli Magistral Yolların İstismarı" MMC ilə subpodratçı olaraq Türkiyənin "KOLİN" İnşaat Turizm San. və Tic. Anonim Şirkəti və "Azvirt" MMC birgə icra edir.

Uşaqlar muxtar respublikanın mədəniyyət müəssisələri ilə tanış olublar

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yay tətili günlərində şəhid övladlarının, sağlamlıq imkanları məhdud, eləcə də aztəminatlı ailələrin üzvləri, valideyn himayəsindən məhrum olan uşaqların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə ekskursiya təşkil edib.

Ekskursiyada müvafiq kateqoriyalardan olan 25 nəfər uşaq iştirak edib. Uşaqlar Heydər Əliyev Muzeyi, Döyüş Şöhrəti Muzeyi, Nəbatat bağı, Xatirə muzeyi ilə tanış olublar.

Döyüş Şöhrəti Muzeyində müxtəlif növ silah, texnika və qurğu, döyüş-nəqliyyat vertolyotu, tanklar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər nümayiş etdirilir.

AMEA Naxçıvan Bölməsinin Nəbatat bağı 2003-cü ildə salınıb. Burada dünyanın müxtəlif coğrafi rayonlarından, o cümlədən Azərbaycan florasından toplanılan torpaq və iqlim xüsusiyyətlərinə malik 200-dən çox ağac əkilərək tədqiq olunur.

Xatirə muzeyində Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olanların fotoşəkilləri, şəxsi sənədləri, döyüş fəaliyyətlərini əhatə edən materiallar, eyni zamanda qəhrəmanlıq tariximizin müxtəlif dövrlərinə aid kitablar nümayiş etdirilir.

Sonda uşaqlar Naxçıvan Dövlət Film Fondunda "Matteo Falkone" (rejissor Tofiq Tağızadə) filminə baxıblar.

Qəbələ emalatxanasında son iki ilin ən böyük xalçası kəsilib

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ emalatxanasında toxunan son iki ilin ən böyük xalçası kəsilib.

"Azərxalça"dan bildirilib ki, 24 kvadratmetr (4x6) ölçüsü olan Quba məktəbinə aid xalça 57.2 kiloqramdır. "Pirəbədil" çeşnili xalçanın toxunmasına toxucular Aygün Nəsirova, Xatirə Şəkərxanova və Ülviyyə Sarıyeva hələ 2018-ci ilin aprel ayında başlayıblar. Ötən ilin martında başlanan COVİD-19 pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə xalçanın toxunması dayandırılıb. Bir il müddətində xalçaya güvə düşməməsi üçün müntəzəm olaraq dərmanlama prosesi aparılıb. 2021-ci ilin aprel ayından istehsalatın bərpa olunması ilə əlaqədar xalçanın toxunuşu davam etdirilib və iyul ayında xalça kəsilərək dəzgahdan götürülüb.

Böyük ölçülü xalçaları toxucular adətən 1 il – 1 il 3 ay müddətində toxuyurlar.

Xatırladaq ki, "Azərxalça"nın emalatxanalarının hər birində xalçalara baxmaq və əldə etmək imkanı mövcuddur.

Həftədə bir dəfə pulsuz ziyarət

İyul ayı ərzində həftədə bir dəfə Azərbaycan Milli Xalça Muzeyini ödənişsiz ziyarət etmək mümkündür. Muzey hər həftənin IV günü saat 18:30-da yeni eksponatlarını görmək istəyənlər üçün ödənişsiz giriş və bələdçi xidməti aksiyası keçirir.

Muzeydən bildirilib ki, aksiyaya qoşulmaq istəyənlər hər həftənin 3-cü günü saat 17:00-dək https://forms.gle/Pv7yQFPXVqnLqzmk6 linkindən qeydiyyatdan keçməlidirlər.

Karantin qaydalarına əsasən, ekskursiya 10 nəfərlik qruplarla təşkil olunacaq.

"İlham Əliyev: Əziz Şuşa, biz qayıtmışıq!"

Kitab 4 dildə çap olunub

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası (AVCİYA) xalqımızın tarixində müstəsna əhəmiyyətə malik olan hadisə – 2020-ci ilin 8 noyabrında Şuşa şəhərinin işğaldan azad edilməsinə həsr edilmiş kitab hazırlayıb. "İlham Əliyev: Əziz Şuşa, biz qayıtmışıq!" adlı kitab Azərbaycan, türk, ingilis və rus dillərində işıq üzü görüb.

Kitab ulu öndər Heydər Əliyevin "Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur!" sözləri ilə açılır. Kitabın əvvəlində iki tarixi sənəd – "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Prezidentinin 7 may 2021-ci il tarixli sərəncamı və 15 iyun 2021-ci ildə imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" verilib.

Kitabın birinci bölümündə ("Rəsmi xronika") Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Şuşanın işğaldan azad edilməsi ilə bağlı Azərbaycan xalqına müraciətləri, Şuşaya səfərləri, şəhərin bərpası istiqamətində görüləcək işlər, "Xarıbülbül" musiqi festivalı haqqında məlumatlar əksini tapıb.

"Şuşa (müxtəsər tarix)" adlı ikinci bölümdə şəhərin tarixinin müxtəlif dövrləri təhlil edilir.

Kitab AVCİYA-nın "1905.az KİTABI" seriyasından növbəti nəşrdir. Seriyanın ideya müəllifi assosiasiyanın prezidenti Elxan Süleymanov, tərtibçisi və elmi redaktoru siyasi elmlər üzrə fəlsəfə doktoru Fuad Babayevdir.

"Düşün ki, şəhid olub o zirvəyə qalxmışam..."

Bu həyatda bizlər üçün ailədən, sevdiklərimizdən də dəyərli tək bir varlıq var. O varlıq ki, heç düşünmədən yolunda canımızı fəda edirik. Bu uca varlığın adı ana Vətəndir! Qırx dörd günlük Vətən müharibəsində doğma yurdun azadlığı üçün qorxmadan canından keçən igidlərimizdən biri də Sadiq Məmmədovdur.

Sadiq Mübariz oğlu Məmmədov 1991-ci il avqustun 15-də Siyəzən rayonunda anadan olub. 1998–2009-cu illərdə Siyəzən rayon 2 nömrəli tam orta məktəbdə təhsil alıb. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb. Əsgəri borcunu yerinə yetirdikdən sonra müxtəlif sahələrdə fəaliyyət göstərib, ailəsinin güzəranını təmin edib.

Sadiq 2020-ci ilin iyun ayında müddətdən artıq hərbi xidmət qulluqçusu kimi yenidən şanlı əsgər formasını geyinərək Gəncə şəhərindəki N saylı hərbi hissədə fəaliyyətini davam etdirir. Sentyabrın 27-də başlanan Vətən müharibəsində digər igid oğullarımız kimi ön cəbhədə yerini alır. Bir çox döyüşdə iştirak edərək qəhrəmanlıq göstərir. Səkkizə yaxın yaralı əsgər yoldaşını döyüş zonasından çıxararaq həyatlarını xilas edir. Oktyabrın 2-də Murovdağ yüksəkliyi uğrunda döyüşlərdə yaralı yoldaşlarını xilas edərkən xain düşmənin gülləsinə tuş gəlir və şəhadət şərbətini içir.

Şəhidin həyat yoldaşı Mapəri Məmmədova Sadiqlə 2013-cü ildə ailə həyatı qurduqlarını deyir: "Əsnad və Bahar adında iki qız övladımız dünyaya gəlib. Müharibə zamanı Sadiq mənə zəng eləyib dedi ki, qızlarımız üçün yaman çox darıxmışam: "Yuxuda görüb o qədər ağlamışam ki, amma az qalıb Zəfərlə dönəcəyəm, siz də hazırlaşın, burada hər şey yolundadır. Qızlarımızın doğum gününü qeyd edib qayıdarıq Gəncəyə. Pəri, düşün ki, şəhid olmuşam, o zirvəyə qalxmışam. O ali mərtəbəyə ucalmaq hər oğula qismət olmur. Tək problem sizdən ayrı qalmaqdır. Qızlarımızın böyüdüyünü görməmək, birlikdə qurduğumuz xəyallarımızın yarımçıq qalması məni çox kövrəldir. Şəhid olsam, qızlarımız sənə, sən də Allaha əmanətsən. Onları biz istəyən kimi böyüt". Allah Sadiqə və bütün şəhidlərimizə rəhmət eləsin. Vətən sağ olsun".

Sadiq Məmmədov oktyabrın 4-də Siyəzən rayon qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunub.

Ruhu şad olsun.

NURƏDDİN

Azərbaycanda daşınmaz mədəni irsin qorunması tarixindən

I yazı

Qədim yaşayış məskənlərindən aşkar olunan tapıntılar, müxtəlif tikinti qalıqları, kurqanlar, qədim qəbiristanlıqlar, memarlıq baxımından dəyərli hesab olunan yaşayış, inzibati və ictimai binalar və s. onları yaradan əcdadlarımızın bilikləri, nəyi sevib-sevmədikləri, texniki bacarıqları, dünyagörüşü, inancı haqqında məlumat daşıyırlar. Bu baxımdan maddi mədəni irs həm də xalqın milli pasportu qismində çıxış edə bilir. Belə olan halda maddi mədəni irsin qorunması məsələsi xüsusi aktuallıq qazanır.

Bəs mədəni irs nümunələrinin qorunması dedikdə nə başa düşülür? Tarixən ölkəmizdə mədəni irsin qorunması işi necə təmin olunub? Bu sahə üzrə indiki vəziyyət necədir? Bu kimi suallara silsilə şəklində təqdim edəcəyimiz yazılarla aydınlıq gətirməyə çalışmışıq.

Əvvəlcə qeyd edək ki, mədəni irs nümunələrinin qorunması dedikdə onların zədələnməsi, deformasiyası, dağıdılması, sökülməsi, konfiqurasiyasının pozulması və ya silahlı münaqişələr, iğtişaşlar və ictimai asayişin pozulmasının digər halları da daxil olmaqla, istənilən təhlükələr nəticəsində dəyərini itirməsinin qarşısının alınması, mədəni sərvətlərin müəyyən edilməsi, tədqiqi, siyahıya alınması, monitorinqi və istifadəsinə nəzarət edilməsi məqsədilə həyata keçirilən hüquqi, maddi-texniki və təşkilati tədbirlər nəzərdə tutulur.

Mədəni irs nümunələri özü də daşınmaz və daşınar olmaqla iki yerə bölünür.

Daşınar mədəni irsə tarixi, təbii, arxeoloji, sənədli, etnoqrafik, kulinar, bədii, elmi tədqiqat, rəsm, incəsənət, kinematoqrafiya, numizmat, filatelist, heraldik, biblioqrafiya, epiqrafiya, estetik, etnoloji və antropoloji daşınar sərvətlərin məcmusu aid edilir. Daşınmaz mədəni irs nümunələri deyilərkən isə arxeoloji, memarlıq, bağ-park, monumental, xatirə abidələri, dekorativ-tətbiqi sənət nümunələri, o cümlədən mədəniyyət, memarlıq, bədii, etnoqrafiya, təbiət abidələri və tarixi qoruqlar, mədəniyyət məkanları, məqbərələr, arxeoloji kompleksler, memarlıq ansamblları, dini ocaqlar və etnoparklar başa düşülür.

Məqsədimiz XIX əsrdən müasir dövrümüzə qədər daşınmaz mədəni irsin qorunması işinin təşkilati və hüquqi baxımdan necə təşkil olunmasını varislik kontekstində açmaq olduğundan diqqətimizi bu yönə istiqamətləndirmişik.

Tarixi keçmişimizə nəzər saldıqda görürük ki, XIX əsrdə ölkəmizdəki tarix və mədəniyyət abidələri yerli mütəxəssislərlə yanaşı, rus və avropalı arxeoloq, şərqşünas, səyyah, əntiqşünas, həvəskar və digərlərinin diqqətini özünə cəlb edə bilmişdir. Azərbaycan ərazilərinin arxeoloji baxımdan tədqiqinə 1829-cu ildən "Rusiya İmperator Arxeoloji Komissiyası" tərəfindən Aleksandr Yanovskinin Cənubi Qafqaza göndərilməsindən sonra daha ciddi fikir verilməyə başlanmışdır. Bu dövrdə abidələrimizin öyrənilməsində akademik B.Dornun da xüsusi xidmətləri olmuşdur.

1834-cü ildə səyyah Dübua de Manpera Göygöl rayonunda, 1847–1849-cu illərdə V.N.Xanıkov Bərdə, Dərbənd, Naxçıvan ərazisində, 1862-ci ildə fransalı şərqşünas səyyah A.Berje Muğan düzündə, 1884-cü ildə Krome, 1888–1889-cu illərdə isə V.Belk Virxovla birlikdə Gədəbəydə Simenslərin mis zavodunun ərazisində, 1880–1890-cı illərdə Moskva Arxeoloji Cəmiyyətinin tapşırığı ilə A.İvanovski və Şuşa realnı məktəbinin alman dili müəllimi Emil Resler Azərbaycanın qərbində, 1890-cı ildə fransalı arxeoloq Jak de Morqan Lənkəran zonasında müəyyən arxeoloji tədqiqat işləri aparmışlar.

Göründüyü kimi, rus arxeoloqlarla yanaşı, Avropadan da mütəxəssislər maddi mədəniyyət abidələrimizə maraq göstərmişdir. Lakin sonuncular bu sahədə görülən işləri əsasən həvəskar formada həyata keçirmiş və başlıca məqsədləri qiymətli əşyalar əldə etmək olmuşdur.

> XX əsrin əvvəllərində aparılan araşdırmalarda əsas diqqət arxeoloji abidələrə verilsə də, sistemli və ardıcıl xarakter daşımamış, bir sıra hallarda, əsasən də erməni əsilli "mütəxəssis"lər çöl tədqiqatları nəticəsində əldə olunan qiymətli materialları talan edərək xaricə daşımışlar.

XIX əsrin əvvəllərindən kortəbii və qeyri-peşəkar formada aparılan işlər 1871-ci ilin oktyabrında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsinin, 1873-cü ildə isə Qafqaz Arxeologiyası Həvəskarları Cəmiyyətinin təşkil edilməsi ilə yeni mərhələyə qədəm qoymuş, Qafqazın, o cümlədən də Azərbaycanın Qafqaz Arxeologiya Cəmiyyətinin nəzarəti altında öyrənilməsinə başlanılmışdır. 1901-ci ildə Tiflisdə Moskva Arxeoloji Cəmiyyətinin Qafqaz şöbəsinin təsis edilməsi də bu sahədə görülən işlərə öz müsbət töhfəsini vermişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulana qədər bir sıra arxeoloji qazıntı və kəşfiyyat xarakterli ilkin tədqiqat işləri aparılmışdır. Akademik V.V.Bartold Bakıda (1904), V.Ter-Qukasov (1908–1920-ci illərdə) Gəncəçay ərazisində və Quşçu kəndi yaxınlığında, S.V.Ter-Avetisyan Pir Hüseyn xanəgahında (1907) və Xaraba Gilan şəhər yeri ərazisində (1913), Y.Lalayan Qədim Qəbələ şəhər yeri xarabalıqlarında (1915) və s.) araşdırma həyata keçiriblər. XX əsrin əvvəllərində aparılan araşdırmalarda əsas diqqət arxeoloji abidələrə verilsə də, sistemli və ardıcıl xarakter daşımamış, bir sıra hallarda, əsasən də yuxarıda adıçəkilən erməni əsilli "mütəxəssis"lər çöl tədqiqatları nəticəsində əldə olunan qiymətli materialları talan edərək xaricə daşımışlar.

Cümhuriyyət dövründə milli ruhun və milli ideyaların güclənməsi nəticəsində milli mədəniyyətin təbliği və tədqiqinə, həmçinin mədəni irsin qorunmasına diqqət artmışdır. Qeyd olunan sahələrin hər biri üzrə təşkil olunmuş işlər peşəkar səviyyədə aparılmış, bu istiqamətdə ardıcıl siyasət yürüdülməsi ilə yanaşı, ictimai təşkilatların imkanlarından da istifadə edilmişdir. Belə ki, 1918-ci ildə Azərbaycanın müxtəlif tipli arxeoloji abidələrini öyrənmək, xalqın mədəni sərvətinin talan edilib xaricə aparılmasının qarşısını almaq məqsədilə Bakıda Arxeologiya Cəmiyyəti yaradılmış, 1919-cu ildə Azərbaycanın tarixi irsini toplamaq və qorumaq üçün yerli diyarşünaslar və şərqşünaslar Şərqin arxeologiyası və tarixinin həvəskarları dərnəyini təşkil etmişlər. Həmin ilin dekabrında isə dərnəyin üzvləri Bakı Universiteti (indiki BDU) nəzdində Müsəlman Şərqini Öyrənən Cəmiyyət yaratmışlar. Bu qurum Cənubi Qafqazın arxeoloji baxımdan öyrənilməsini, Şabran şəhərinin xarabalıqlarının axtarılmasını, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin qəbirüstü abidəsinin tədqiqini, Bakı ətrafındakı tarixi abidələrin öyrənilməsini ön plana çəkmişdi. Cəmiyyət Orta əsr şəhərlərinin tədqiqinə də xüsusi əhəmiyyət verirdi.

1919-cu ildə Bakı şəhərinin baş memarı (1908-1922) olmuş Zivərbəy Əhmədbəyov Şamaxıda mədəniyyət abidələrinin öyrənilməsi və Şamaxının bərpası üçün "Yeni Şirvan" cəmiyyətini (o, hələ 1917-ci ildə Ömər bəy Abuyevlə birgə "İslam incəsənəti abidələrini sevənlər və qoruyanlar cəmiyyəti"ni yaratmışdı) təsis etmişdir. Bundan başqa, Cümhuriyyət hökumətinin 31 avqust 1918-ci il tarixli qərarı ilə Xarici İşlər Nazirliyi yanında yaradılan Fövqəladə Təhqiqat Komissiyası yalnız erməni-bolşevik terror dəstələrinin 1918-ci ilin mart ayında xalqımıza qarşı həyata keçirdiyi soyqırımı faktları ilə bağlı materialların toplanması ilə kifayətlənməmiş, həmçinin Azərbaycan xalqının tarixi keçmişi ilə bağlı olan maddi mədəniyyət nümunələrinin siyahıya alınması, onların öyrənilməsi və bərpası istiqamətində fəaliyyət göstərməyi də vacib hesab etmişdir. Bu baxımdan sözügedən komissiyanın üzvü Məhəmməd bəy Ağayevin 24 yanvar 1920-ci ildə daxili işlər nazirinə ünvanladığı tarixi məktub olduqca qiymətli sənədli faktdır. Burada o, bir sıra mühüm məsələlərə toxunmuş və Azərbaycan Xalq Cümhuriyyətinin Xalq Maarif Nazirliyi yanında Arxeologiya şöbəsinin yaradılması təklifini irəli sürmüşdü. Lakin 1920-ci ilin 28 aprelində Cümhuriyyətin süquta uğradılması və ölkəmizin işğalı ilk respublikamızın qarşıya qoyduğu vəzifələri gerçəkləşdirməsinə imkan vermədi.

Seyran QULİYEV
Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin baş məsləhətçisi, BDU-nun doktorantı

Şəki Xan məscidində Məhəmmədhüseyn xanın qəbri aşkar edilib

Hakimiyyətdaxili ədavət nəticəsində öldürülən Məhəmmədhüseyn xan "Müştaq" təxəllüslü şair kimi də tanınmışdı

Şəki Xan məscidi Şəki şəhərinin tarixi hissəsində – "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində yerləşir. Xan məscidinin uzunluğu 45, eni 10 metrdir. Məscid hicri təqvimi ilə 1183-cü ildə Şəki xanı Məhəmmədhüseyn xanın (?–1780) sifarişi ilə tikilmişdir. Məscidin tikintisi başa çatarkən bu münasibətlə o dövrün məşhur şairlərindən biri – Hacı Məhəmməd Çələbi Əfəndi Zari 9 beytdən ibarət bir qəzəl yazmış və həmin qəzəlin içində qapalı maddeyi-tarixlə məscidin tikilmə tarixini göstərmişdir. Bu qəzəllə yanaşı görkəmli ədəbiyyatşünas Salman Mümtaz "Riyazül-üləma" sözünün də əbcəd hesabı ilə bu məscidin tikilmə tarixi olduğunu bildirib. Hər iki maddeyi-tarix əbcəd hesabı ilə 1183-ə bərabərdir ki, bu da miladi 1769-1770-ci ilə uyğundur.

Salman Mümtazın qeyd etdiyinə görə, məscid daha əvvəl I Cümə məscidi adlanmışdır və Məhəmmədhüseyn xan özü tikdirdiyi bu məscidin mehrabı içində dəfn edilmişdir.

14 aprel 1853-cü il tarixdə (digər mənbələrdə – maddeyi-tarixlərdə, 1842-1843) məscid Nuxa bazarı ilə birlikdə yanmışdır. Mustafa ağa Şəkixanovun yazdığına görə, o vaxt bazar və Cümə məscidi ilə yanaşı, məscid ətrafındakı evlər də yanğına məruz qalıblar. Yanğından sonra Mustafa ağanın atası Kərim ağa Şəkixanov bu məscidi bərpa etdirməyə başlamış, lakin bəzi yerlərini – minarənin başını, pilləkənlərini və yanğına məruz qalmış digər yerlərini bərpa və təmir etdirməyə onun ömrü çatmamışdır. Sovet dövründə məsciddən barama anbarı, "Ziyalılar evi" kimi istifadə edilmiş, 1992-ci ildə isə məscid "Azəri" adlanan qeyri-leqal dini icma üzvlərinin sərəncamına verilmişdi. Sonuncular məscidi daima bağlı saxlamış, hansısa təmir-bərpa işlərinə və icma üzvü olmayan şəxslərin orada ibadət etməsinə uzun müddət imkan verməmişdilər. Nəhayət, bir neçə il davam etmiş məhkəmə çəkişmələrindən sonra məscid geri alınaraq Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin balansına daxil edilmiş və orada təmir-bərpa işlərinə başlanılmışdır.

Bir neçə aydır ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə Şəki Xan məscidində təmir-bərpa işləri davam edir. Məscid Dövlət Turizm Agentliyinin (DTA) tabeliyində olan "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində yerləşdiyinə görə təmir-bərpa işləri çərçivəsində DTA-nın sifarişi ilə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Antik dövr arxeologiyası şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Zaur Həsənovun rəhbərliyi altında ərazidə arxeoloji qazıntılar da aparılmaqdadır.

Zaur Həsənov bu günlərdə mediaya verdiyi müsahibəsində vurğulamışdır ki, Məhəmmədhüseyn xanın qəbrinin yerini dəqiqləşdirmək üçün Salman Mümtazın qeydlərinə uyğun olaraq Şəki Xan məscidinin içində arxeoloji qazıntılara başlanılmış, məscidin 1-ci mehrabının qarşısında, 1-2 metr qərb tərəfdə qəbir daşları aşkar olunmuşdur. Çox güman ki, bu Məhəmmədhüseyn xanın qəbridir.

İyulun 3-də həmin yerdə arxeoloji qazıntılar davam etdirilərkən insan sümükləri, hətta bir ədəd güllə də aşkar edilmişdir. Məlum olduğu kimi, Məhəmmədhüseyn xan edam edilməzdən 1 həftə əvvəl güllə ilə yaralanmışdı…

Məhəmmədhüseyn xanı kimlər və niyə öldürmüşdü?

Məhəmmədhüseyn xan Şəki xanı Hacı Çələbi xanın nəvəsidir. Atası Həsən ağa hələ Hacı Çələbi xanın sağlığında bir döyüşdə həlak olmuşdur. 1755-ci ildə Hacı Çələbi xanın vəfatından sonra onun oğlu Ağakişi bəy Şəkidə hakimiyyətə keçmişdi. Lakin 4 il sonra o, Ərəşdə Qazıqumux hakimi Məhəmməd xan tərəfindən sui-qəsdlə öldürüldü. Bundan sonra isə Məhəmməd xan Şəki xanlığının paytaxtı olan Nuxanı da (indiki Şəki) tutdu. Lakin bu hadisələr vaxtı Nuxanı tərk etmiş Məhəmmədhüseyn xan Məhəmməd xanın Nuxaya daxil olmasının 40-cı günü qonşu xanların hərbi yardımı ilə Nuxanı geri ala bildi və özünü Şəki xanı elan etdi.

Hacı Çələbi xanın iki oğlu sağ ola-ola nəvəsinin özünü Şəki xanı elan etməsi Məhəmmədhüseyn xanın əmilərinin öz qardaşoğulları ilə ədavətə başlamasına səbəb oldu. Nəticədə Məhəmmədhüseyn xan öz əmilərindən birini – Cəfər ağanı öldürtdü. İkinci əmisi Hacı Əbdülqadir ağa isə Dardoqqaza (Qanıx çayının Kürə töküldüyü yerdə yarımada) qaçdı. Orada Hacı Əbdülqadir ağanı Qarabağ xanı İbrahim xan, gürcü çarı İrakli dəstəkləməyə başladılar. Məhəmmədhüseyn xan dəfələrlə Dardoqqaza hücum etsə də, uğur qazana bilmədi. Əlacı üzülüb, oğlu Məhəmmədhəsən ağanı barışıq üçün əmisinin yanına əmanət göndərdi. Lakin əvəzində, Hacı Əbdülqadir ağa Məhəmmədhəsən ağanı tutub Məhəmmədhüseyn xanın qatı düşməni olan İbrahim xana təhvil verdi ki, Məhəmmədhüseyn xandan intiqam almaq üçün oğlunu – Məhəmmədhəsən ağanı öldürsün (amma İbrahim xan Məhəmmədhəsən ağanı öldürməmiş, siyasi məqsədlər üçün gizlincə saxlamışdı).

1780-ci ilin avqust ayında isə Hacı Əbdülqadir ağanın Dardoqqazdan göndərdiyi 60 nəfər gecə xəlvəti gəlib Nuxa ətrafındakı dağlarda gizləndilər. Onlar günorta saatlarında dağdan aşağı düşüb Məhəmmədhüseyn xanın iqamətgahını – Qurğuşunlu evi mühasirəyə aldılar. Məhəmmədhüseyn xan yanındakı ikinci oğlu Fətəli ağa ilə birlikdə onlara silahlı müqavimət göstərdi; oğlu tüfəngi doldurub verdi, o isə atəş açdı. Amma sonda yaralanaraq təslim olmağa məcbur oldu. Bundan sonra hakimiyyət Hacı Əbdülqadir xanın əlinə keçdi. Məhəmmədhüseyn xanı isə bir həftə saxlayıb, hansısa müqaviləyə qol çəkdirdikdən sonra boğdurmaq yolu ilə edam etdilər.

Onu da qeyd edək ki, Məhəmmədhüseyn xan "Müştaq" ədəbi təxəllüsü ilə şeirlər yazmış, o dövrün ən məşhur şairləri ilə məktublaşmışdır. Faciəli ölümü münasibətilə o dövrün məşhur şairlərindən Molla Vəli Vidadi özünün "Müsibətnamə" adlı məşhur müxəmməsini qələmə almışdır.

Aydın MƏMMƏDOV
M.F.Axundzadə adına Şəki Mədəniyyət Mərkəzinin əməkdaşı

Respublika Uşaq Kitabxanası əl işləri müsabiqəsi elan edib

"İşğaldan azad olunan abidələrimiz"

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası məktəblilərin yay tətili zamanı asudə vaxtlarını səmərəli keçirmələri üçün daha bir müsabiqəyə elan edib.

Kitabxana əvəzolunmaz milli sərvətimiz olan Qarabağın tarix və mədəniyyət abidələri haqqında məlumatları uşaq və yeniyetmələr arasında daha geniş təbliğ etmək üçün 8 Noyabr – Zəfər Gününə həsr olunmuş "İşğaldan azad olunan abidələrimiz" adlı ümumrespublika əl işləri müsabiqəsi elan edib. Müsabiqə 10-15 yaş məktəblilər arasında keçirilir.

Müsabiqənin keçirilməsində məqsəd məktəblilərdə Vətənə məhəbbət hissini gücləndirmək, milli-mənəvi dəyərlərimizi təbliğ etməklə Qarabağın zəngin tarix və mədəniyyət abidələrini uşaq və yeniyetmələrə tanıtmaq, istedadlı uşaqları üzə çıxartmaq və onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməkdir.

Məktəblilər müsabiqəyə Qarabağın dağıdılmış tarix və mədəniyyət abidələri ilə bağlı əl işlərini təqdim etməlidirlər. Əl işlərinin hazırlanmasında müxtəlif materiallardan (gil, papye-maşe, karton, taxta, şüşə və s.) istifadə oluna bilər.

Təqdim olunan əl işləri haqqında qısa məlumat (hansı rayonda yerləşir, işğal olunduğu və işğaldan azad edildiyi tarix və s.) verilməlidir.

Əl işləri oktyabrın 15-dək kitabxananın Kütləvi işlər şöbəsində qəbul olunacaq.

İştirakçılar əl işləri ilə yanaşı özləri haqqında məlumatı (ad, soyad, ata adı, oxuduğu təhsil müəssisəsi, sinif, telefon nömrəsi, e-mail və s.) da təqdim etməlidir.

Müsabiqənin yekunu olaraq noyabrın 5-də əl işlərindən ibarət sərgi təşkil olunacaq.

Mirəli Mirqasımovun yaradıcılıq dünyası

Azərbaycan heykəltəraşlıq sənəti tarixində onun adı böyük ehtiramla çəkilir. Xalq rəssamı Mirəli Mirqasımov (9.2.1924 – 9.11.2003) istər dəzgah, istərsə də monumental heykəltəraşlıq sahəsində müəllifi olduğu yaddaqalan yaradıcılıq nümunələri ilə incəsənət xadimləri və sənətsevərlər tərəfindən xüsusi rəğbət qazanıb.

O, AMEA-nın ilk prezidenti olmuş görkəmli akademik, tibb alimi Mirəsdulla Mirqasımovun ailəsində dünyaya göz açmışdı. Şübhəsiz ki, ailəsində elmə, sənətə olan maraq ona ilk növbədə valideynlərindən sirayət eləmişdi. M.Mirqasımovun gələcəkdə tanınmış incəsənət xadimi olmasında anası Ceyran xanımın həlledici rolu olub. Yeddi yaşında eşitmə qabiliyyətini itirmiş gələcək heykəltəraşa anası qayğı ilə yanaşıb, oğlunun sənətin sirlərinə yiyələnməsində xüsusi fədakarlıq göstərib. M.Mirqasımov orta və ali ixtisas təhsilini sırf heykəltəraşlıq üzrə almış ilk tişə ustalarımızdandır. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində (1939-1943) müəllimi məşhur heykəltəraş P.Sabsay olub, daha sonra İ.E.Repin adına Sankt-Peterburq Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunda (1944-1950) tanınmış heykəltəraşlar A.T.Matveyev, V.A.Sinayski, M.K.Anikuşin, rəssamlar S.L.Abuqov və A.A.Mılnikovdan heykəltəraşlıq sənətinin sirlərini öyrənib.

M.Mirqasımov yarım əsrdən çox uğurlu bədii yaradıcılıq fəaliyyəti ilə məşğul olub, bədii-estetik məziyyətlərə malik bir çox büst portret əsərləri və monumental heykəltəraşlıq abidələri ərsəyə gətirib. M.Mirqasımovun yaradıcılığının əsas xüsusiyyətləri kimi professional işlənilmə, mükəmməl bədii obraz yaradıcılığı, surətlərin fərdi xarakterik və ümumiləşdirilmiş formada bədii işlənilmə xüsusiyyətlərini vurğulamaq olar. Sənətkarın dəzgah heykəltəraşlığı sahəsində yaratdığı büst portretlərə nə qədər poetiklik, lirizm və zahiri statiklik xasdırsa, monumental heykəltəraşlıq abidələrində isə, əksinə olaraq, dinamizm, daxili ekspressivlik və gərgin müdrik düşündürücülük əlamətləri xasdır. Bu xüsusiyyətlər həmçinin obrazların özlərinin yaşamış olduqları həyat tərzləri ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, heykəltəraş yaradıcılığının ilk illərində animalistik janrda heykəllər yaratmağa üstünlük verib. Ümumiyyətlə, Azərbaycan heykəltəraşlıq sənətində nədənsə animalistik janrda heykəltəraşlıq əsərləri az yaradılıb. Bu baxımdan M.Mirqasımovun bu sahədə olan yaradıcılıq fəaliyyəti təqdirəlayiqdir. Onun müəllifi olduğu dəzgah heykəltəraşlığı əsərlərinə nümunə olaraq "M.Ə.Sabirin büstü" (1948), "At" (1950, gips), "Şir" (1950, gips), "Qız portreti" (1955, mərmər), "Ana portreti" (1956, gips), "Qız göyərçinlə" (1956, mərmər), "Şah yaylaq" (1957, gips), "C.Cabbarlı" (1958, mərmər), "Neftçi Qurban" (1959, bürünc), "Azadlıq" (1959, bürünc), "İkar" (1962, bürünc), "Xəzri" (1966, bürünc), "Akademik Mirəsədulla Mirqasımov" (1980, bürünc), "Hərəkət qüvvətdir" (1982, bürünc), "C.Cabbarlı" (1987, bürünc) və başqalarını göstərmək olar. Sadalanan hər bir sənət əsərinin ərsəyə gətirilməsi heykəltəraşın gərgin yaradıcılıq axtarışları və zəhməti hesabına başa gəlib.

Nümayiş olunan bu sənət incilərindən estetik zövq alan tamaşaçı çox zaman fikirləşmir ki, sənət nümunəsi kimi tamaşa etdiyi əsər hansı və necə mürəkkəb yaradıcılıq prosseslərindən keçərək gəlib bu səviyyəyə çıxıb. Heykəltəraş yaradıcılığının ilkin dövrlərində gənclik şövqü ilə yaratdığı obrazlarda daha çox vurğunu gözəllik, lirika üzərində kökləyib. M.Mirqasımov "Ana", "Nefçi" və "Qız göyərçinlə" portretlərinə görə 1955-ci ildə Varşavada təşkil olunan Gənclərin və Tələbələrin V Ümumdünya Festivalında laureat adına layiq görülmüşdü. Bu mükafat tişə ustasının dəzgah heykəltəraşlığı sahəsində yaradıcılığına verilmiş qiymət idi.

Ümumiyyətlə götürtdükdə, yaradılmış bütün monumental heykəltəraşlıq nümunələrinin ilkin variantı dəzgah heykəltəraşlığından keçir. Heykəltəraş hər hansı bir monumental abidə üzərində işləyərkən onun kiçik modellərini, eskizlərini hazırlayır. M.Mirqasımovun iştirak etdiyi müsabiqələrdə monumental heykəltəraşlıq abidələri üçün yaratmış olduğu eskiz layihələrə "C.Cabbarlı" (1959, gips), "M.Füzuli" (1962, gips), "İ.Nəsimi" (1973, gips), "C.Cabbarlı" (1981, gips) və başqalarını qeyd etmək olar.

M.Mirqasımovun müəllifi olduğu monumental heykəltəraşlıq abidələrinə Sumqayıt şəhərində "N.Nərimanovun büstü" (1964, bürünc), Naxçıvan şəhərində "C.Məmmədquluzadənin heykəli" (1974, bürünc, memar Ənvər İsmayılov), Bakı şəhərində "C.Cabbarlının heykəli" (1982, qranit, memar Yusif Qədimov) göstərmək olar. Sadalanan abidələr şəhərlərimizin ümumi memarlıq quruluşunun həllində və yerləşdiyi yerlərin məkan-plan quruluşları ilə ahəngdarlıq təşkil edir, sakinlərin və qonaqların bədii-estetik zövqünü oxşayır.

Dahi yazıçı, məşhur "Molla Nəsrəddin" jurnalının naşiri və redaktoru Mirzə Cəlilin heykəli Naxçıvan şəhərində ucaldılmış ilk monumental abidələrdən biridir. Yazıçının adını daşıyan Naxçıvan Dövlət Musiqili Dram Teatrının qarşısında ucaldılan heykəlin ümumi hündürlüyü 5 metrdir, postamenti qranit üzlüklə üzlənib. Sağ ayağı bir az yığılı, sol ayağı bir qədər irəli, sağ qolu sağ qıçı üzərində uzalı, sol əli sol qıçına söykəli (sanki yazıçı irəliyə doğru əyilmiş bədəninin müvazinətini saxlayır), başı bir qədər yana yönəlmiş, əngin xəyallar burulğanına qərq olmuş vəziyyətdə, baxışlarından fikir süzülən yazıçının son dərəcə poetik, əsil Mirzə Cəlil xislətinə malik bədii obrazı əbədiləşdirilib. Yazıçının üst geyimi – paltosunun sol çiyninə aşırılmış vəziyyətdə təsvir edilməsi obrazın bədii-estetik məzmununu qüvvətləndirməyə hesablanıb və kompozisiyanın bitkinliyini təşkil edir. Abidə monumental heykəltəraşlıq sənətimizdə xüsusi yer tutur.

M.Mirqasımovun yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən sənət əsəri, heç şübhəsiz ki, məşhur yazıçı, dramaturq, incəsənət xadimi Cəfər Cabbarlının Bakıda ucaldılan heykəlidir. Əzəmətli – hündürlüyü 5,5 metrə çatan abidə son dərəcə mükəmməl kompozisiya və bədii işlənilmə xüsusiyyətlərinə malikdir. Hündür qranit postamentin üzərində yazıçının ayaq üstə, başını sola çevirmiş, əlləri sinəsində qoşalanmış vəziyyətdə və gərgin fikirlər keçirdiyi məqamda, orijinal formada monumental bədii obrazı yaradılıb. Dramaturqun bədii obrazında ekspressiv, üsyankar və barışmaz "mən"i daha çox surətin zahiri quruluşu ilə üzə çıxarılıb.

Dramatizm və dinamizm, yazıçının daxili gərginliyi abidənin ümumi plastik həlli yolu ilə açılıb. Heykəltəraş bu əsərində də paltodan obrazın ümumi bədii həllində vahid element kimi istifadə edib. Yazıçının çiyinlərindən sallanan palto sanki teatrın pərdələrini xatırladır və obrazın monolitliyini və monumentallığını artırır. Postamentdə teatr maskalarının əks etdirilməsi abidənin vahid kompozisiya bütövlüyündə həllinə xidmət edir və surətin bədii ifadəliyinə əlavə estetik zövq gətirir. C.Cabbarlının heykəli Azərbaycan heykəltəraşlıq sənətində bədii və texniki işlənilmə, həmçinin qranitdən yonulmuş ən monumental heykəltəraşlıq abidəsi kimi daxil olub. Bu abidə SSRİ Rəssamlıq Akademiyasının diplomuna layiq görülüb.

M.Mirqasımov həmçinin atası, AMEA-nın ilk prezidenti, məşhur həkim Mirəsədulla Mirqasımovun Fəxri xiyabandakı qəbirüstü memorial abidəsinin müəllifidir.

Heykəltəraş bütöv yaradıcılığı boyu hər zaman yüksək sənət amallarına sadiq qalaraq, uğurlu yaradıcılıq yolu keçib və hər zaman bədii-estetik zövq aşılayan, nəzər-diqqəti cəlb edən bitkin sənət əsərləri ərsəyə gətirib. XX əsr heykəltəraşlıq sənətimizin tanınmış tədqiqatçısı, sənətşünaslıq doktoru, professor Cəmilə Novruzova heykəltəraşın yaradıcılığı barədə yazır: "M.Mirqasımovun yaradıcılığında bir-birilə bağlı olan iki istiqamət – hərarətli lirizm və plastikanın güclü forması aydın sezilir. Bu iki istiqamət bir-birilə qırılmaz vəhdətdədir".

M.Mirqasımovun bədii yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, "Əməkdar incəsənət xadimi" (1963), "Xalq rəssamı" (1982) fəxri adlarına və müstəqil dövlətimizin "Şöhrət" ordeninə layiq görülüb.

Xalq rəssamı, məşhur heykəltəraş Mirəli Mirqasımovun müəllifi olduğu heykəltəraşlıq əsərləri var olduqca sənətkar da təsviri sənət tariximizdə yaşayacaq.

Əsəd QULİYEV
sənətşünas, AMEA-nın dissertantı, Rəssamlar İttifaqının üzvü

"Art Management" layihəsində növbəti vebinar keçirilib

Mədəniyyət Nazirliyi və Azərbaycan Dövlət Rəsm Qalereyasının təşkilatçılığı ilə reallaşan "Art Management" layihəsi çərçivəsində iyulun 6-da növbəti vebinar keçirilib.

"İncəsənət əsərlərinin istehsalı və satışı" mövzusunda vebinarı sərgi kuratoru, sənətşünas Fərəh Ələkbərli aparıb.

Vebinar Azərbaycan Dövlət Rəsm Qalereyasının rəsmi saytı (www.azgallery.az), "Facebbok" və "İnstagram" sosial media hesabları vasitəsilə yayımlanıb.

Vebinarda iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

Fərəh Ələkbərli Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Təsviri incəsənətin tarixi və nəzəriyyəsi fakültəsinin magistr pilləsini bitirib. "Baku Creative Centre" yaradıcılıq mərkəzinin, Mədəniyyət Nazirliyinin layihələrinin, YARAT Müasir İncəsənət Mərkəzinin bir çox sərgilərinin kuratoru olub.

Xatirə təqvimi — 10–13 iyul

Azərbaycan

10 iyul 1899 – Şair Xəstə Bayraməli (Bayraməli Abbaseli oğlu Xudiyev; 1899-1952) Qərbi Azərbaycanda, Göyçə mahalının Nərimanlı kəndində anadan olub.

10 iyul 1909 – Azərbaycanın ilk sənədli film rejissorlarından olan Niyazi Mustafa oğlu Bədəlov (1909 – 2.11.1997) Şəkidə anadan olub. Ümumittifaq Kinematoqrafiya İnstitutunun ilk azərbaycanlı məzunlarındandır.

10 iyul 1924 – Ədəbiyyatşünas, tərcüməçi Əkbər Ağarza oğlu Babayev (1924 – 12.9.1979) anadan olub.

10 iyul 1930 – Xalq yazıçısı Sabir Məhəmməd oğlu Əhmədli (1930 – 17.4.2009) Cəbrayıl şəhərində doğulub. "Pillələr", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Axirət sevdası" və s. kitabların müəllifidir. Əsərləri xarici dillərə tərcümə edilib.

10 iyul 1937 – Əməkdar incəsənət xadimi, şairə, dramaturq Kəmalə Ağa qızı Ağayeva (1937 – 18.7.2019) Naxçıvan şəhərində anadan olub. Mənzum pyesləri ("Məhsəti", "O, bizim dağların oğludur", "Göyçək Fatma" və s.) teatrlarda tamaşaya qoyulub.

10 iyul 1949 – Əməkdar artist İbrahim Əsgər oğlu Əliyev (1949 – 26.11.2020) Bakıda anadan olub. Filmlərdə ("Güllələnmə təxirə salınır!", "Qətl günü") çəkilib, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləyib.

10 iyul 1953 – Əməkdar incəsənət xadimi Ələkbər Rauf oğlu Kazımovski (1953-2016) anadan olub. 1974-cü ildən Azərbaycan Televiziyasında işləyib, film-tamaşa və sənədli telefilmlərin rejissoru olub.

11 iyul 1926 – Əməkdar rəssam Altay Ağasəid oğlu Səidov (1926 – 10.9.2015) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında quruluşçu rəssamı, baş rəssam işləyib, Musiqili Komediya Teatrında tamaşalara səhnə tərtibatı verib

11 iyul 1926 – Tarix elmləri doktoru Şövkət Əzizağa qızı Tağıyeva (1926-2015) anadan olub. Cənubi Azərbaycan və İran tarixinə dair tədqiqatların müəllifidir.

11 iyul 1937 – Əməkdar rəssam Əkrəm Qulam oğlu Həsənzadə (1937 – 22.11.2007) anadan olub. Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Texnikumunda çalışıb. Rəssamlar İttifaqının bölmə müdiri olub.

11 iyul 2006 – Görkəmli kinorejissor, operator, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov (22.11.1933 – 2006) vəfat edib. "Sən niyə susursan?", "Onun böyük ürəyi" və s. filmlərin quruluşçu operatoru olub. "Tütək səsi", "Ad günü", "İstintaq", "Ölsəm, bağışla" və s. filmlərə quruluş verib.

12 iyul 1911 – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (30.5.1862 – 1911) vəfat edib. Ölümündən sonra şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

12 iyul 1987 – Əməkdar mədəniyyət işçisi, aşıq Hüseyn Saraçlı (Hüseyn Qurban oğlu Həsənov; 1916-1987) vəfat edib.

13 iyul 1889 – Maarif və mədəniyyət xadimi Xosrov Mirzə Əli oğlu Axundzadə (1889-1960) Şuşada anadan olub.

13 iyul 1910 – Yazıçı-dramaturq, tərcüməçi Nağı Kərim oğlu Nağıyev (1910-1981) Naxçıvan MR Culfa rayonunun Yaycı kəndində anadan olub.

13 iyul 1926 – Xalq rəssamı Vidadi Yaqub-Fərman oğlu Nərimanbəyov (1926-2001) anadan olub. "Yolda", "Xatirələr", 20 Yanvar mövzusunda "Qatillər" tabloları və s. əsərlərin müəllifidir. 20-dək ölkədə sərgisi keçirilib.

13 iyul 1936 – Kinooperator, rejissor, Əməkdar incəsənət xadimi Rasim Rza oğlu İsmayılov (1936 – 4.5.2004) anadan olub. "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Babək" və s. filmlərin quruluşçu operatoru olub. "Şir evdən getdi", "Sizi dünyalar qədər sevirdim" və s. bədii filmlərə quruluş verib.

13 iyul 1946 – Bəstəkar Eldar Səid oğlu Rüstəmov (1946-2010) anadan olub. Romans, süita, oda və s. janrlarda əsərlər, filmlərə musiqilər yazıb.

13 iyul 2001 – Xalq şairi Mirvarid Paşa qızı Dilbazi (19.8.1912 – 2001) vəfat edib. Ədəbi yaradıcılıqla bərabər rus şairlərinin əsərlərini dilimizə tərcümə edib.

Dünya

10 iyul 1871 – Fransız yazıçısı Marsel Prust (Valentin Louis Georges Eugune Marcel Proust; 1871-1922) anadan olub. "İtirilmiş zamanın axtarışında" adlı silsilə əsərlərin (17 roman) müəllifidir.

10 iyul 1918 – Avstraliya əsilli ingilis yazıçısı Ceyms Oldric (James Aldridge; 1918 – 23.2.2015) anadan olub. Əsərləri: "Şərəf məsələsi", "Dəniz qartalı", "Diplomat" (1940-cı illərdə Cənubi Azərbaycanda baş verən olaylar da təsvir olunub) və s.

11 iyul Dünya Əhali Günüdür (World Population Day). 1987-ci ilin 11 iyulunda Yer kürəsi əhalisinin sayının 5 milyardı keçməsi ilə bağlı təsis olunub. 1989-cu ildən BMT İnkişaf Proqramının tövsiyəsi ilə qeyd olunur.

11 iyul 1892 – Amerika aktyoru, dramaturq, ssenarist, "Oskar" mükafatçısı Tomas Con Mitçell (Thomas John Mitchell; 1892–1962) anadan olub.

12 iyul 1813 – Fransız psixoloqu, eksperimental psixologiyanın banisi Klod Bernar (Claude Bernard; 1813-1878) anadan olub.

12 iyul 1884 – İtalyan rəssamı Amadeo Modilyani (Amedeo Clemente Modigliani; 1884-1920) anadan olub. Qadın rəsmlərinin mahir ustası olub.

12 iyul 1904 – Çili şairi, ədəbiyyat üzrə Nobel mükafatı (1971) laureatı Pablo Neruda (Pablo Neruda - Ricardo Eliezer Neftal Reyes Basoalto; 1904-1973) anadan olub.

13 iyul 1841 – Avstriya memarı, müasir Avropa memarlığının banilərindən biri Otto Vaqner (Otto Koloman Wagner; 1841-1918) anadan olub.

13 iyul 1923 – SSRİ Xalq artisti Mixail Puqovkin (1923-2008) anadan olub. Əksəriyyəti komediya olmaqla 100-dək filmdə ("I" əməliyyatı...", "Sportloto-82", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.) çəkilib.

Hazırladı: Vüqar ORXAN

"Azərbaycanın tədqiqatçı alimləri" seriyasından biblioqrafiya

Milli Kitabxananın "Azərbaycanın tədqiqatçı alimləri" seriyasından tərtib etdiyi növbəti biblioqrafiya ədəbiyyatşünas, publisist, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya elmləri doktoru, professor Teymur Əhmədovun (1930–2021) anadan olmasının 90 illiyinə həsr edilib.

Biblioqrafiya 1957-2021-ci illəri əhatə edir. Azərbaycan, rus və digər dillərdə ədəbiyyatı əhatə edən göstəricidə Teymur Əhmədovun əsərləri – kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, habelə həyat və yaradıcılığını əks etdirən zəngin material toplanıb.

Biblioqrafik göstəricidə materiallar xronoloji prinsip əsasında qruplaşdırılıb, daxildə əlifba sırası gözlənilib.

Vəsaitdən istifadəni asanlaşdırmaq məqsədilə sonda Teymur Əhmədovun əsərlərinin və haqqında yazan müəlliflərin əlifba göstəriciləri tərtib edilib.

Biblioqrafik göstərici ilə bu linkdə tanış olmaq olar: http://anl.az/down/Teymur_Ehmedov.pdf

№51 (1828)
9 iyul 2021
www.medeniyyet.az

TÜRKSOY Afrika qitəsinə ayaq açır

Azərbaycan mədəniyyəti də qurumun xətti ilə Afrikada təqdim olunacaq

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun rəhbərlik etdiyi nümayəndə heyəti Konqo Demokratik Respublikasına səfər edib. 27 iyun – 3 iyul tarixlərində gerçəkləşən səfərin məqsədi TÜRKSOY–Afrika Birliyi və TÜRKSOY–Konqo Demokratik Respublikası əməkdaşlığına dair müzakirələr aparılması və Türkiyədə elan edilən "2021 Türk dili və Yunus Əmrə İli" çərçivəsində bu ölkədə bir sıra tədbirlərin keçirilməsi olub.

Qeyd edək ki, səfər TÜRKSOY-un Afrika qitəsində ilk fəaliyyəti ilə əlamətdar olub.

Nümayəndə heyəti əvvəlcə Türkiyənin Konqo Demokratik Respublikasının paytaxtı Kinşasadakı səfirliyini ziyarət edib. Səfir Mehmet Munis Dirik ilə görüşdə TÜRKSOY-un region ilə əlaqələrini inkişaf etdirmək hədəflərindən söz açılıb.

Növbəti görüş Konqo Demokratik Respublikası Mədəniyyət, İncəsənət və İrs Nazirliyində keçirilib. Nazir Katherine Kathungu Furaha ilə görüşdə TÜRKSOY-un bu ölkədə və ümumilikdə Afrika qitəsində fəaliyyət perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb. Düsen Kaseinov afrikalı sənətçilərin və elm adamlarının TÜRKSOY-un tədbirlərinə qatılmasından məmnunluq duyacağını ifadə edib.

İyunun 29-da Konqo Demokratik Respublikası Milli Muzeyində "2021 Türk dili və Yunus Əmrə İli" çərçivəsində "Sevgi mədəniyyətinin bayrağı – Yunus Əmrə" adlı sərgi açılıb.

Sərginin açılış mərasimindən əvvəl TÜRKSOY və Konqo Demokratik Respublikası Mədəniyyət, İncəsənət və İrs Nazirliyi arasında əməkdaşlıq sazişi imzalanıb.

Sonra sərginin açılış mərasimi keçirilib. Afrika qitəsində Yunus Əmrəyə həsr olunmuş ilk sərgidə Əskişəhər Anadolu Universiteti Gözəl sənətlər fakültəsinin dəstəyi ilə ərsəyə gələn əsərlər təqdim edilib.

Açılış mərasiminə Konqo Demokratik Respublikasının mədəniyyət, incəsənət və irs naziri Katherine Kathungu Furaha və TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, Türkiyənin Kinşasadakı səfiri Mehmet Munis Dirik və 2-ci Türkiyə-Afrika Tərəfdaşlıq Zirvəsinin koordinatoru, səfir Can İncesu ilə yanaşı çox sayda qonaq qatılıb.

Mədəniyyət, incəsənət və irs naziri Katherine Kathungu Furaha mütəfəkkir şair Yunus Əmrənin sözlərindən və təsəvvüf fəlsəfəsindəki sevgi anlayışından çox təsirləndiyini vurğulayıb.

Konqolu nazir TÜRKSOY ilə qurulan əməkdaşlığın əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, imzalanan sənəd Türk dünyasının qədim mədəniyyətlərə sahib ölkələri – Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistanın Konqoda və Afrika qitəsində tanıdılması, həm də Afrika mədəniyyətinin daha geniş auditoriyaya çatdırılması və qurumların təcrübə mübadiləsi üçün zəmin yaradacaq.

Baş katib Düsen Kaseinov Afrika səfəri çərçivəsində Afrika Birliyinin qərargahının yerləşdiyi Efiopiyanın Əddis-Əbəbə şəhərində də bir sıra görüşlər keçirib. Efiopiyanın paytaxtında türkdilli respublikaların bu ölkədəki diplomatlarının iştirakı ilə toplantı keçirilib. Toplantıda TÜRKSOY–Afrika Birliyi arasında imzalanacaq əməkdaşlıq anlaşması ilə bağlı müzakirələr aparılıb. Toplantıda Azərbaycan səfirliyinin müvəqqəti işlər vəkili Ruslan Nəsibov da iştirak edib.

Mehparə SULTANOVA
Ankara

Xalq yazıçısından uşaqlara hədiyyə

"Muradın nağılları" kitabının təqdimatı

İyulun 7-də Bakı Kitab Mərkəzində Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anarın "Muradın nağılları" kitabının təqdimat mərasimi keçirilib.

Təqdimat çərçivəsində Xalq rəssamı Arif Hüseynovun kitab üçün çəkdiyi əsərlərdən ibarət sərgi də nümayiş olunub.

Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı bildirib ki, "Muradın nağılları" məktəbəqədər yaşda uşaqlar üçün dəyərli uşaq ədəbiyyatı nümunəsidir. Yazıçı bu kitabı nəticəsi Muradın ilk ad gününə həsr edib. Kitabda Anarın yeni yazıları ilə yanaşı, uzun illər öncə qələmə aldığı hekayələri və uşaqlar üçün yazdığı "Yuxum qaçıb" adlı radiopyesi də yer alıb. "Nəfis tərtibatlı kitaba Xalq rəssamı Arif Hüseynovun çəkdiyi illüstrasiyalar elə ilk baxışdaca uşaqları ovsunlamağa, nağıl dünyasına aparmağa qadirdir", - deyə G.Anarqızı bildirib.

Bakı şəhəri 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin direktoru Lalə Qəti kitabın məzmunundan söz açıb. Bildirib ki, məktəbəqədər yaşda uşaqlara oxumaq üçün mətnlər seçərkən valideynlər məzmunla yanaşı, səslənməyə, dilin leksik, qrammatik vasitələrinə də diqqət yetirsələr yaxşı olar. Anarın "Əlifba" nağılı bu baxımdan azyaşlı uşaqlar üçün kifayət qədər uğurlu mətndir.

Bildirilib ki, öyrədicilik baxımdan kitabdakı daha bir maraqlı mətn "Sözü tap, yerinə qoy" hekayəsidir. Burada məqsəd uşağı əyləndirərək öyrətməkdir. Məsələ hekayənin qəhrəmanı Muradın anasına "Mənə çay bişir" deməsi ilə başlayır. Anası nəvazişlə ona başa salır ki, çayı bişirməzlər, dəmləyərlər, xörəyi isə bişirərlər. Beləcə, anası Murada Azərbaycan mətbəxinə aid bəzi yeməklərin, ərzaqların əvvəlcə adlarını, sonra isə xüsusiyyətlərini öyrədir.

Xalq rəssamı Arif Hüseynov sərginin təşkil edilməsində məqsədini açıqlayıb. Bildirib ki, çox zaman kitabda nəşr olunan rəsmlər orijinaldan fərqli olur. O, uşaqları rəsmlərin əslinə baxmağa dəvət edib və tövsiyə edib ki, onlar bu kitabı mütləq oxusunlar. Rəssam qeyd edib ki, bu, onun uşaqlar üçün yaratdığı ilk illüstrasiyalardır.

Xalq yazıçısı Anar tədbirə toplaşanlara və Arif Hüseynova təşəkkürünü bildirib.

Təqdimatda Bakı şəhəri 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin nəzdində fəaliyyət göstərən "Çiçəyim" uşaq teatrı üzvlərinin ifasında kitabdan parçalar təqdim olunub.

"DokuBaku"nun beşinci buraxılışı

Noyabrın 3-dən 7-dək Bakıda "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalının beşinci buraxılışı keçiriləcək. Builki festivalın əsas mövzusu "Hisslər±" adlanır.

Hazırkı dövrdə insanların hissləri sosial inkişaf, siyasi mühit, maddi rifah və qlobal pandemiya kimi ciddi sınaqlara məruz qaldığına görə belə bir seçim edilib. Fərdi təcrübələri və fiziki vəziyyəti də daxil olmaqla, bütün bunlar insanın dünyanı necə qavradığına təsir edir. Bu il münsiflər heyətini insanların daxili və xarici dəyişimlərinə, özünü axtarışlarına və yer üzündə var olma anlamlarına həsr olunmuş filmlər xüsusilə maraqlandıracaq.

"DokuBaku"nun 5-ci buraxılışında müsabiqədənkənar filmlər də nümayiş olunacaq. Bundan əlavə, festival çərçivəsində Azərbaycan sənədli filmlərinin retrospektivi təşkil olunacaq. Bu, mərhum azərbaycanlı ssenarist və rejissor Çingiz Rəsulzadənin xatirəsinə həsr ediləcək. Müraciətlər sentyabrın 20-dək www.filmfreeway.com platformasına təqdim edilə bilər.

Qeyd edək ki, 2017-ci ildə əsası qoyulmuş festival müxtəlif ölkələrdən sənədli filmlərin nümayişi ilə yanaşı, yerli filmmeykerlərə dəstək vermək məqsədi daşıyır.

Fotoqraflarımız beynəlxalq müsabiqədə 11 mükafat qazanıblar

"Gilavar" Azərbaycan Fotoklubunun təşkilati dəstəyi ilə keçirilən daha bir beynəlxalq fotomüsabiqəyə yekun vurulub.

"Azerbaijan Photo Salon - 2021" adlı müsabiqəyə 75 ölkədən 519 fotoqraf tərəfindən 7300 əsər təqdim edilib. Sərbəst rəngli, sərbəst ağ-qara, insanlar və səyahət mövzuları üzrə təqdim olunan fotolar Azərbaycan, İtaliya və Hindistandan olan 3 münsif tərəfindən qiymətləndirilib.

Klubun həmsədri, beynəlxalq dərəcəli fotoqraf Rəşad Mehdiyevin sözlərinə görə, bu, "Gilavar" Azərbaycan Fotoklubu tərəfindən həyata keçirilən sayca yeddinci beynəlxalq fotomüsabiqədir. Dörd nominasiya üzrə təqdim olunan 161 mükafata 38 ölkənin 121 fotoqrafı layiq görülüb.

Müsabiqənin ən yaxşılarına qızıl, gümüş və bürünc medallar, xüsusi lentlər və diplomlar təqdim olunacaq, qaliblərin fotolarından ibarət elektron kataloq hazırlanacaq.

Azərbaycan fotoqrafları Ramil Zeynalov gümüş medal və fəxri lent, Roman İsmayılov, Orxan Əzimov, Valeri Xlızov, Aleksandr Firstov, Fərqanə Qasımlı fəxri lent, Nurlan Tahirli və Rüstəm Məhərrəmov isə diplom qazanıb. Ümumilikdə fotoqraflarımız 11 mükafat qazanıblar.

Dövlət Tərcümə Mərkəzi Türkiyə Yazarlar Birliyi ilə əməkdaşlıq edəcək

Azərbaycan Dövlət Tərcümə Mərkəzi ilə Türkiyə Yazarlar Birliyi arasında memorandum imzalanıb.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, memorandumda Azərbaycan–Türkiyə ədəbiyyatlararası qarşılıqlı mübadilələr çərçivəsində əsərlərin tərcüməsi və nəşri, kitablara dair təqdimatların, dəyirmi masa və onlayn-konfransların təşkili, nəşrlərin geniş oxucu auditoriyasına çatdırılması, ölkələrin mərkəzi kitabxanalarına və universitetlərinə yerləşdirilməsi kimi məsələlər nəzərdə tutulur.

Sənəd Azərbaycan Dövlət Tərcümə Mərkəzi İdarə Heyətinin sədri, Xalq yazıçısı Afaq Məsud və Türkiyə Yazarlar Birliyinin sədri, yazıçı Musa Kazım Arıcan tərəfindən imzalanıb.

Pikassonun yeni tapılan əsəri 150 min dollara satılıb

Dünya şöhrətli ispaniyalı rəssam Pablo Pikassoya (1881-1973) məxsus yeni rəsm əsəri 150 min dollara satılıb. ABŞ-ın Men əyalətindəki bir evdə 50 il şkafda saxlanılan əsər Massaçusets şəhərindəki "John McInnis Auctioneers" qalereyasında alıcısını tapıb.

Ölçüləri 40x40 sm olan "Le Tricorne" ("Üçkünc şlyapa") tablosu müəllif tərəfindən 1919-cu ildə imzalanıb. Nyu-York Tarix Cəmiyyətində Pikassonun ispan bəstəkarı Manuel de Falyanın (1876-1946) eyniadlı baleti üçün Londonda hazırladığı səhnə dekorasiyası ilə bənzərliyi səbəbindən əsərin də rəssama aid olduğunu düşünürlər.

Qeyd edək ki, "Le Tricorne" baleti 1919-cu ildə Londonda tamaşaya qoyulub. Rəssamın tamaşaya verdiyi bədii tərtibat (pərdə) 2015-ci ildən Nyu-Yorkda sərgilənir.

Əsərin alıcı və satıcısının adları açıqlanmasa da, rəsmin satıcının bibisindən atasına miras qaldığı bildirilir. Əsərin müəllifini rəssamın oğlunun rəhbəri olduğu müvafiq qurumda dəqiqləşdirməsi üçün alıcının 4 ay vaxtı var.

NURƏDDİN

74-cü Kann Film Festivalı

"Qızıl palma budağı" uğrunda 24 film yarışır

2020-ci ildə pandemiya səbəbindən keçirilməyən Kann Film Festivalı bu il, ənənəvi vaxtında (may) olmasa da, məhdud iştirakçı sayı və zəruri ehtiyat tədbirləri alınmaqla, nəhayət, işə başlayıb. İyulun 6-da açılan 74-cü Beynəlxalq Kann Film Festivalı 17 iyuladək davam edəcək.

Festival proqramına ümumilikdə 61 film seçilib. Münsiflər heyətinə amerikalı rejissor Spike Lee sədrlik edir.

Festivalın səlahiyyətli nümayəndəsi Tyeri Fremo bildirib ki, "Kann premyeraları" (Cannes Premiers) adlı yeni seksiyanın yaradılması bir ilkdir. Bu seksiya artıq seçilmiş və təsdiqlənmiş kinorejissorlar üçün nəzərdə tutulur.

Festivalda digər yenilik ətraf mühit məsələlərinə həsr edilmiş müvəqqəti xarakterli seksiyadır. Festival hələ aprelin ortalarında ətraf mühitə təsirlərin azaldılmasına yönələn bir sıra tədbirlər, eləcə də akkreditə olunmuş jurnalistlərin töhfələri ilə bağlı məlumat vermişdi.

Kann festivalının əsas müsabiqə proqramına gəlincə, "Qızıl palma budağı" mükafatı uğrunda mübarizədə 24 film iştirak edir. Onlardan 4-nün rejissoru qadındır. Festival Leos Karaksın "Annette" filmi ilə açılıb.

Festivalın ilk günü fəxri "Qızıl palma budağı"nın laureatı da elan edilib. Kann festivalının ən nüfuzlu mükafatına məşhur amerikalı aktrisa Codi Foster layiq görülüb.

Aktrisaya mükafatı ispaniyalı rejissor Pedro Almodovar təqdim edib. Təşkilatçılar bildirib ki, bu, Codi Fosterin Kann festivallarında qazandığı sayca doqquzuncu mükafatdır.

Aktrisa yarıməsrlik karyerasında festivalda müxtəlif mükafatlar qazanıb. "Festival bütün həyatımı dəyişib, mən ona çox borcluyam. Burada aktyorlara bəslənilən hörmət mənim üçün çox əzizdir", - deyə Codi Foster bildirib.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

Baş redaktor: Vüqar Əliyev
Ünvan: AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
Telefon: (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
E-mail: qazet@medeniyyet.az
Lisenziya № AB 022279
İndeks: 0187
Qiyməti: 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Tiraj: 5146
Sifariş: 1234
Buraxılışa məsul: Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.